

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Dövlətinin və xalqının XİLASKARI



Bax səh. 4

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

04 iyun 2025-ci il, çərşənbə
№ 095 (6922)
Qiyməti 60 qəpik

BAKU ENERGY WEEK

# Azərbaycanın qlobal enerji dialoqunda artan rolu

Bax səh. 2

## "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar"

İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə paytaxtımızda "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbir BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq konfransıdır.

Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində tanınmış mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri, eləcə də millət vəkilləri iştirak ediblər.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan bu təşkilat yaradıldığı vaxtdan bəri bütün dünyada iqtisadi təşəbbüslərin təşviqi üçün...

Bax səh. 4



Bax səh. 3

## Ölkədəki mövcud siyasi həmrəyliyin təcəssümü

## Enerji diplomatiyasının yeni uğurları

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Baku Energy Forumunda Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi hadisələrdən biri də yeni tarixi sazişlərin imzalanması oldu. Enerji Həftəsi çərçivəsində SOCAR, TPAO, "Exxon Mobil Corporation", MOL, ITOCHU və "Gran Tierra Energy" şirkətləri ilə imzalanmış sənədlər enerji sahəsində yeni əməkdaşlıq mərhələsinin başlandığını şərtləndirir.

Bakı Forumunda qlobal enerji ailəsi və Azərbaycan üçün əlamətdar sazişlərdən biri "Şahdəniz Kompressiya" layihəsi ilə bağlı yekun investisiya qərarının imzalanmasıdır. "Şahdəniz" konsorsiumu tərəfindən imzalanan saziş Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsi olan yeni "Şahdəniz Kompressiya" (ŞDK) layihəsində yeni əməkdaşlıq üçün potensialların səfərbər olunmasını nəzərdə tutur.

Dəyəri 2,9 milyard...

Bax səh. 5

## Rusiya tələb edir, Ukrayna geri çəkilmir...

Bax səh. 6




## Rəqəmsal polad magistral

Bax səh. 5

## Şimal Alyansının şərq cinahı narahatdır

Bax səh. 6

## Qrenlandiya Vaşinqtonun "təsir"inə keçir?

Bax səh. 7

## Dublin yəhudisinin odisseyası

Bax səh. 7

# Strateji tərəfdaşlığımız bundan sonra da inkişaf edəcək, möhkəmlənəcək



Qardaş ölkə və etibarlı strateji tərəfdaşımız olan Qazaxıstanla əlaqələrimizin hazırkı səviyyəsi məmnunluq doğurur. İkitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. Eyni zamanda, ikitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi təqdirəlayiqdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanmasının 20 illiyi münasibətilə ünvanlandığı məktubda yer alıb.

Dövlətimizin başçısı qeyd edib ki, bu sənəd Azərbaycan-Qazaxıstan əlaqələrinin tarixində yeni səhifə açaraq əməkdaşlığımızı daha da möhkəmləndirib. Dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini özündə əyani şəkildə əks etdirən bu tarixi sənəd bütün səviyyələrdə fəal siyasi dialoqun inkişafına, iqtisadi, ticari, humanitar və digər sahələrdə səmərəli tərəfdaşlığın genişləndirilməsinə əlverişli zəmin yaradıb.

"İnanıram ki, xalqlarımızın qardaşlığı, ortaq tarixi-mədəni kökləri, mənəvi dəyərləri kimi sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Qazaxıstan ənənəvi dostluq əlaqələri və strateji tərəfdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# Prezidentin SƏRƏNCAMI



Prezident İlham Əliyev Qaraməryəm-İsmayıllı-Şəki magistralını Oğuz rayonunun Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, Qaraməryəm-İsmayıllı-Şəki magistralını dörd min nəfər əhalinin yaşadığı Calut, Mollalı, Yemişanlı, Dəymədərə, Tərkeş və Dəymədağlı kəndləri ilə birləşdirən avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın. Maliyyə Nazirliyi Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək. İqtisadiyyat Nazirliyi Sərəncamında göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutacaq.

# Azərbaycanın qlobal enerji dialoqunda artan rolu

"Bakı Enerji Həftəsi" Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilib. Ənənəvi enerji mənbələrindən bərpaolunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edildiyi "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır. Dünya miqyasında tədbirə maraq ildən-ilə artır. Artıq üç onillikdir ki, Bakı dünya enerji gündəliyinin geniş şəkildə müzakirə olunduğu və bu sahədə perspektivlərin müəyyənləşdirildiyi bir məkana çevrilib. "Bakı Enerji Həftəsi"nə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan məktub ünvanlayaraq ölkəmizlə enerji əməkdaşlığının önəminə diqqət çəkiblər.

## "Əsrin müqaviləsi" ilə başlayan səmərəli enerji əməkdaşlığı

Hazırda dünya miqyasında müşahidə edilən reallıqlar fonunda beynəlxalq enerji əməkdaşlığının önəmi heç vaxt olmadığı qədər artıb. Ayrı-ayrı regionlarda geosiyasi və geoiqtisadi gərginliklərin artması, Yaxın Şərqdə, Şərqi Avropada sonu görünməyən müharibələr qarşıya yeni çağırışlar çıxarıb. Ənənəvi təchizat mexanizmlərinin pozulması, nəql marşrutlarının təhlükəsizliyinin təmin edilməməsi, siyasi motivlər əsas tutulmaqla bir sıra iri istehsalçılara genişmiqyaslı sanksiyaların tətbiqi yeni, daha etibarlı təchizat mənbələrinə ehtiyacı artırıb. İyunun 2-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirakçıların səsləndirdikləri faktlar mənzərə barədə konkret təsəvvür yaradır. Bildirildiyi kimi, bu gün Avropa İttifaqı (Aİ) özünün enerji sistemi tarixində şaxələndirmə və tərəfdaşlıq münasibətlərinə əsaslanan yeni fəsil açır. Bu reallıq fonunda Azərbaycan yeni mənbə kimi diqqət mərkəzinə gəlib. Qeyd edək ki, Azərbaycanla Avropa ölkələri arasında enerji əməkdaşlığı uzun tarixə malikdir. Əvvəllər bu sahədə əməkdaşlıq neft və neft məhsullarının təchizatını əhatə edirdi. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında 1994-cü il 20 sentyabr tarixində Azərbaycanla transmilli şirkətlər arasında imzalanan "Əsrin müqaviləsi"ni xatırladıb. Bəhs olunan saziş regionda bütün geosiyasi və geoiqtisadi vəziyyətin dəyişməsinə güclü şəkildə təsir göstərdi.

"Əsrin müqaviləsi" respublikamızın inkişafının, müstəqilliyini möhkəmlətməsinin əsas təkanverici qüvvəsi oldu. Həmin dövrün mənzərəsinə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, o zaman Azərbaycan müəyyən obyektiv səbəbdən xarici investorlar üçün riskli ölkə hesab edilirdi. Ölkədə vətəndaş qarşıdurması yeni başa çatmışdı, iqtisadiyyat iflic vəziyyətində idi, inflyasiya 1000 faizlə ölçülürdü və yoxsulluq hökm sürürdü. Bununla yanaşı, ərazilərimizin Ermənistan tərəfindən işğalı nəticəsində 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Gələcəklə bağlı aydın olmayan təsəvvürlər yaranmışdı. Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir. "Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək", - deyə dövlətimizin başçısı vurğulayıb.

"Əsrin müqaviləsi" ilə yalnız milli inkişafın əsası qoyulmadı, eyni zamanda, mükəmməl beynəlxalq əməkdaşlıq formalaşdı. Burada Azərbaycanın enerji siyasətinin özəllikləri xüsusi rol oynayır. Dünyada enerji resurslarına malik olan ölkələrin sayı çoxdur. Ancaq onların bir çoxu Avropa ilə enerji dialoqu qurmaq istəsələr də, buna nail ola bilməyiblər. Açıq deyək ki, satış bazarlarına çıxmaq və burada özünü təsdiqləmək elə də asan məsələ deyil. Bəs Azərbaycanın üstünlüyü nədədir? Hansı amillərə görə respublikamız qısa müddətdə Aropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən, bütövlükdə "qoca qitə"nin enerji xəritəsini yeniləyən ölkəyə çevrilib? Bəli, respublikamızın mövqeyini gücləndirən bir sıra fundamental amillər var. Resursların zənginliyi cəlbedici faktor olsa da, respublikamıza üstünlüklər qazandıran yeganə amil deyil. Sualın cavabı ilk növbədə respublikamızın özünü etibarlı tərəfdaş kimi təsdiqləməsindədir. İndiyədək keçilən yolda Azərbaycan təchizatçı ölkə olaraq bütün müqavilə öhdəliklərini yüksək səviyyədə yerinə yetirib. Eyni zamanda, biz bilirik ki, bəzi təchizatçı ölkələr malik olduqları resurslardan istehlakçılara qarşı təzyiq vasitəsi kimi istifadə edirlər. Respublikamız isə belə yanaşmalardan uzaqdır. Prezident İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, Azərbaycanın enerji siyasəti ədalət prinsipinə əsaslanır və bu da hazırkı və potensial partnyorlarda ölkəmizə inamı atırır.




## Azərbaycanın dəniz sahillərindən İtaliyayadək uzanan Cənub Qaz Dəhlizi

Müasir nəql marşrutuna malik olması beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın digər bir mühüm üstünlüyüdür. Azərbaycan bir sıra təchizatçı ölkələrdən fərli olaraq şaxələndirlmiş nəql infrastrukturuna malikdir. Prezident İlham Əliyevin strateji baxışları bu məsələdə də, necə deyərlər, zamanı qabaqlayıb. Hazırda respublikamız Avropa üçün yalnız yeni enerji mənbəyi deyil. Azərbaycanın üstünlüyü həm də ondadır ki, ölkəmiz dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi sayəsində Xəzər sahillərindən Avropanın mərkəzi hissəsinədək uzanan müasir nəql marşrutunun - Cənub Qaz Dəhlizinin yaradılmasına nail olub. Dövlətimizin başçısı bəhs olunan marşrutu belə səciyyələndirib: "Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir".

Açıq dənizə çıxışı olmayan Azərbaycanı Aralıq və Adriatik dənizləri ilə birləşdirən layihə bir vaxtlar çoxlarına xəyal kimi görünsə də, artıq reallıqdır. Cənub Qaz Dəhlizi 3 boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir - Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik (TAP) boru kəməri. TAP İtaliyaya qədər uzanır. Cənub Qaz Dəhlizi kifayət qədər mürəkkəb texniki infrastrukturdur. Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də layihənin yekun hissəsi olan TAP istifadəyə verilib. Hazırda respublikamız Avropadakı istehlakçılara qaz ixracını bu kəmər vasitəsilə həyata keçirir.







## İxrac coğrafiyası genişlənir

Ölkəmizin ixrac coğrafiyasının genişlənməsi də məmnunluq doğurur. Bu, o anlama gəlir ki, "qoca qitə"də ölkəmizin etibarlı tərəfdaş olduğuna böyük inam var. Xüsusilə də Balkan ölkələri Azərbaycanla enerji dialoqunu genişləndirməyə çalışırlar. Azərbaycan təbii qazını Avropaya nəql edən və Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik boru kəməri bu regiondan - Yunanıstan və Albaniyadan keçir. Qeyd etmək yerinə düşər ki, 2022-ci ilin oktyabr ayında Yunanıstan-Bolqarıstan interkonnektoru istifadəyə verilib və Azərbaycan qazı Balkan regionuna daxil olub, eyni zamanda, bu regionda daxili interkonnektorlar vasitəsilə Azərbaycanın təbii qaz ixracı bazarı daha da genişlənib. Qeyd edək ki, Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) ümumi uzunluğu 182 kilometrdir, Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir.

Ötənilki "Bakı Enerji Həftəsi"ndəki çıxışında Prezident İlham Əliyev Azərbaycanın o zaman 8 ölkəyə təbii qaz ixrac ediyi barədə məlumat vermişdi. Bu gün isə həmin ölkələrin sayı 12-yə çatıbdır və bu, hələ də son deyil. Qeyd edək ki, respublikamızdan qaz tədarük edən ölkələrin 10-u Avropada yerləşir. Hazırda ixrac coğrafiyasının genişləndirilməsi və sərmayə qoyuluşu ilə bağlı ayrı-ayrı ölkələrlə danışıqlar aparılır. Bütün bunlar müsbət dinamikadır. "Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir. Hər kəs üçün uğurlu vəziyyət yaranır və biz hər zaman istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balansına diqqət yetirmişik. Çünki zənnimcə, bu amil gələcək enerji əməkdaşlığı baxımından olduqca vacibdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Xatırladaq ki, ötən il respublikamız 25 milyard kubmetr həcmində qaz ixrac edib. Hazırda hasilatın artırılması Azərbaycanın gündəliyində duran vacib məsələlərdən biridir. Qarşıya qoyulan hədəf 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artırmaqdır və bu, tam realdır.

## ABŞ ölkəmizlə enerji əməkdaşlığını davam etdirmək niyyətindədir

Co Bayden dönəmində məhz qarşı tərəfin məsuliyyətsizliyi üzündən müəyyən qədər səngiyən Azərbaycan-ABŞ münasibətləri yeni seçilən Prezident Donald Trampın Ağ Evə gəlişindən sonra yenidən ənənəvi müsbət məcrasına qayıdıb. Donald Tramp "Bakı Enerji Həftəsi"nə ünvanladığı məktubunda Azərbaycanın regional liderliyinə xüsusi vurğu edib. Məktubda oxuyuruq: "Əziz cənab Prezident. Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisinin keçirilməsi münasibətilə təbrik edirəm. Bu, Azərbaycanın həqiqətən də regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir".



Xatırladaq ki, Azərbaycan ilə ABŞ arasında tərəfdaşlığın 30 ildən artıq bir tarixi vardır. Bu illər ərzində ölkələrimiz arasında müxtəlif istiqamətlərdə uğurlu əməkdaşlıq ənənələri formalaşıb. 2001-ci ildən ABŞ-ın başçılığı ilə NATO-nun Əfqanıstandakı əməliyyatlarında Azərbaycanın sülhməramlı qüvvələri fəal iştirak ediblər. Ölkəmizin Əfqanıstandakı sülhməramlıları NATO tərəfdaşları arasında bu ölkəni sonuncu tərk edənlər sırasında olublar. Onlar Kabil beynəlxalq hava limanında təxliyə işlərində əhəmiyyətli rol oynayıblar.

Təqdirəlayiq haldır ki, Azərbaycanla ABŞ arasında iqtisadi əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan Cənubi Qafqazda ABŞ-ın ən böyük ticarət tərəfdaşıdır. Regionda birbaşa xarici sərmayələr ən çox Azərbaycana yatırılıb (14 milyard ABŞ dollarından çox). Azərbaycanda 300-dən çox Amerika şirkəti qeydiyyatdan keçib.

İqtisadi sahədə ölkələrimiz arasında bir sıra mühüm sənədlər imzalanıb. Hələ 1993-cü ildə Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında ticarət münasibətləri haqqında saziş və Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında sərmayə qoyuluşunun qarşılıqlı qorunması və təşviq edilməsi haqqında 1997-ci il müqaviləsi imzalanıb. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi ilbəil artır.

Enerji dialoqu ikitərəfli əməkdaşlığın mühüm istiqamətlərindən biridir. 1994-cü ildə Azəri-Çıraq-Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üzrə "Əsrin müqaviləsi"ndə ABŞ şirkətlərinin yer alması ilə başlanan əməkdaşlıq, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən əsas ixrac neft və qaz kəmərlərinin tikintisinə fəal dəstək ilə davam etdirilib. 14 sentyabr 2017-ci ildə Azəri - Çıraq - Günəşli yatağının dərinsulu hissəsinin birgə işlənməsinin 2050-ci ilədək uzadılmasına dair yenilənmiş Hasilatın Pay Bölgüsü (HPB) sazişində ABŞ-ın "Şevron" və "Ekson" şirkətləri yer alıb.

ABŞ Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsini davamlı olaraq dəstəkləyib. Ağ Ev Cənub Qaz Dəhlizinə qətiyyətlə sadiq olduğunu və layihənin tamamlanması üçün Azərbaycan və onun beynəlxalq tərəfdaşlarının səylərini dəstəklədiyini dəfələrlə bildirib. Ağ Evin yeni rəhbərliyi ölkəmizlə enerji dialoqunu bundan sonra da davam etdirmək niyyətindədir. "ABŞ Azərbaycanla tərəfdaşlığını enerji sabitliyinin həyata keçirilməsinin mümkünlüyü istiqamətində də davam etdirmək əzmindədir. Biz bu önəmli sektorla birlikdə səylərimizi enerji müstəqilliyinin dayanıqlılığı və iqtisadi artım istiqamətində reallaşdıra bilərik", - deyə Donald Tramp məktubunda vurğulayıb.

## Azərbaycan ilə Türkiyənin birgə uğurları

Bu gün zirvədə olan Azərbaycan-Türkiyə əməkdaşlığının mühüm bir istiqamətini məhz səmərəli enerji dialoqu təşkil edir. Bu əməkdaşlığın önəmi hazırda dünyada yaşanan reallıqlar fonunda daha aydın dərk olunur. "Can Azərbaycan ilə yaxın münasibətlərimiz bütün sahələrdə olduğu kimi, enerji sahəsində də güclü şəkildə və qətiyyətlə davam etdirilir", - deyə Rəcəb Tayyib Ərdoğan məktubunda bildirib.

İndiyədək Azərbaycan və Türkiyənin birgə səyləri sayəsində bir neçə nəql marşrutunun yaradılması iki ölkə arasında enerji sektorunda fəal əməkdaşlığın əyani göstəricisidir. Ötən əsrin 90-cı illərinin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəql marşrutlarının şaxələndirilməsi baxımından çox mühüm əhəmiyyət daşıyan hadisə idi. Daha sonra 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəməri istifadəyə verildi. Bu gün Bakı-Tbilisi-Ceyhan Azərbaycan neftinin Avropa bazarlarına daşınması üçün əsas nəql marşrutudur. Əlamətdar haldır ki, hazırda Bakı-Tbilisi-Ceyhandan digər ölkələr də faydalanırlar.

2007-ci ildə Azərbaycan və Türkiyənin iştirakı ilə daha bir nəql marşrutu - Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara buraxılıb. Bakı-Tbilisi-Ərzurum istifadəyə verilsə də, "Şahdəniz" yatağının zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyük həcmli yeni dəhlizin yaradılmasına ehtiyac var idi. Yeni, daha böyük həcmli marşrut kimi yenə də qardaş Türkiyədən keçən Cənub Qaz Dəhlizi seçilib. Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən birini Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) təşkil edir. TANAP kimi önəmli layihənin icrasına heç də asanlıqla nail olunmayıb. Başlanğıcda layihənin icrasına həm siyasi, həm də praktiki müstəvidə bir sıra əngəllər var idi. Belə olan halda qardaş ölkələr - Azərbaycan və Türkiyə bütün məsuliyyəti öz üzərlərinə götürdülər və layihəni tamamlamaq mümkün oldu. "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız bu əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana deyil, eyni zamanda, bölgənin və Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir", - deyə qardaş ölkənin dövlət başçısı vurğulayıb.



İki qardaş ölkə arasında hazırda enerji dialoqunun yeni səhifəsi açılmaqdadır. Mart ayında açılışı edilən İğdır-Naxçıvan boru kəməri illərə və uğurlara əsaslanan enerji əməkdaşlığımızın ən yeni örnəyidir. Xəttin fəaliyyətə başlaması Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini gücləndirib. Enerji dialoqunun perspektivləri barədə fikirlərini bölüşən Rəcəb Tayyib Ərdoğan vurğulayıb: "İki ölkə arasında təbii qaz sahəsində yeni layihələr üçün hələ də böyük potensialın olduğunu görürük. Uzun illərdir həm Türkiyəyə, həm də Avropaya ciddi miqdarda qaz tədarük edən Azərbaycanın dünya enerji bazarında bu strateji rolunun, xüsusilə yerləşdiyimiz mövqedə əhəmiyyəti çox böyükdür. Qarşıdakı dövrdə türkmən qazının hər birimizə fayda verəcək şəkildə Azərbaycan və Türkiyə vasitəsilə ixracı məsələsində əməkdaşlığımızı genişləndirmək üçün mühüm fürsət vardır. Bu layihə həm tədarük yollarının şaxələndirilməsinə, həm də regional rifaha töhfə verəcəkdir".

***Mübariz ABDULLAYEV***

# 7-ci səfər...

## Budəfəki ünvan Cəbrayıl və Zəngilan rayonlarıdır

## Ölkədəki mövcud siyasi həmrəyliyin təcəssümü

Siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərləri Azərbaycan cəmiyyəti tərəfindən artıq formalaşmış demokratik ənənə kimi qəbul olunur. Prezident İlham Əliyevin təşəbbüsü ilə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində siyasi partiya sədrlərinin birgə səfərləri siyasi müstəvidə tərəflər arasında yaşanan etibarlı münasibətlərin göstəricisidir. Odur ki, müsbət ənənəyə çevrilmiş sözügedən səfərlər artıq ölkənin siyasi gündəliyinin ayrılmaz parçasıdır. Təsadüfi deyil ki, milli həmrəylik təzahürü ilə təcəssüm olunan sözügedən demokratik təcrübə ictimaiyyət tərəfindən təqdir olunur və dəstəklənir.





AZƏRTAC xəbər verir ki, iyunun 3-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin sayca yeddinci (daha öncə Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran, Xankəndi və Laçın) olan növbəti birgə səfəri baş tutub.

Son illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi olaraq müxtəlif səpkili layihələr icra edilir. Siyasi partiya sədrlərinin, habelə ölkədə tanınmış alim, politoloq və qələm sahiblərinin iştirakı ilə təşkil olunan çoxsaylı görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və digər bu kimi layihələr mövcud istiqamətdə görülən işlərin sadəcə bir parçasıdır. Bütün bu təşəbbüslər demokratik ənənələri daha da dərinləşdirir və siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət edir.



Budəfəki birgə səfərin ünvanı Cəbrayıl və Zəngilandır. Səfərdə, ümumilikdə, 70 nəfərdən artıq şəxs iştirak edib. 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlərin iştirakı ilə keçirilmiş səfərin proqramı kifayət qədər zəngin və maraqlı idi.

Səfər çərçivəsində iştirakçılara Horadiz şəhərinin yaxınlığında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib və düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək imkanı yaradılıb.

Daha sonra səfər iştirakçıları üçün Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi tərəfindən Cəbrayıl şəhərinin giriş hissəsində işğal zamanı düşmənin dağıtdığı evlərin qalıqları, Cəbrayıl şəhər yaşayış kompleksi və Mehdi Mehdizadə adına tam orta məktəb ilə tanışlıq, həmçinin şəhərin baş planının təqdimatı keçirilib.

Səfər çərçivəsində iştirakçılar Cəbrayılda yerləşən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı haqqında geniş məlumat əldə ediblər. Daha sonra qonaqlar üçün Zəngilanın Məmmədbəyli kəndi, Zəngilan şəhər məscidi, Zəngilan Konqres Mərkəzi, 104 mənzilli yaşayış kompleksi və Oxçuçay üzərində yerləşən “Zəngilan” SES-ə ekskursiyalar təşkil olunub.



Siyasi partiya sədrləri ilə birgə səfərdə iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev siyasilərin qarşısında çıxış edərək, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində ötən dövr ərzində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam əməkdaşlığın və həmrəylik mühitinin siyasi sabitliyin və demokratik münasibətlərin əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, mövcud istiqamətdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə əldə olunmuş bütün uğurların əsasını təşkil edir, həmçinin 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə Azərbaycan xalqının əzmkarlığı ilə yanaşı, cəmiyyətimizdə yaşanan milli həmrəyliyi və birliyi təcəssüm etdirir.



Cəbrayıl və Zəngilanın timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətinin nümayişi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bir müddət sonra Qarabağ dünyanın ən füsunkar ünvanlarından biri olacaq. Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Böyük Qayıdış Proqramı bu cür nəticələrin əldə olunması üçün müstəsna zəmin yaradır.

Səfər iştirakçılarına bildirilib ki, bölgənin turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

### Növbədənkənar sessiyanın ilk iclasında...

# Ötən ilin dövlət büdcəsinin icrası haqqında sənəd müzakirəyə çıxarılıb

İyunun 3-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi barədə məlumat verib. Gündəliyə 7 məsələ daxil edilib.

Əvvəlcə “Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında” qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsinin büdcə qanunvericiliyinin tələblərinə uyğun tərtib edildiyini, layihə ilə bağlı Hesablama Palatasının geniş rəyinin təqdim olunduğunu deyib. Komitə sədri büdcə parametrlərinin, o cümlədən büdcə gəlirləri, xərcləri və kəsirinin, habelə büdcə qaydasının əhəmiyyətindən danışıb. Ölkə Prezidenti tərəfindən büdcə siyasətinin prinsip və hədəflərinin müəyyən edildiyini vurğulayıb. O, dövlətimizin başçısının büdcənin maksimum dərəcədə icra edilməsi, maliyyə intizamının daha da yüksək səviyyədə olması, şəffaflığın tam şəkildə təmin edilməsi, büdcə xərclərinin strukturuna yenidən baxılması və büdcə vəsaitinin qənaətlə xərclənməsi, bütün cari xərclərimizin qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsi kimi tövsiyələrini nəzərə çatdırıb. Bu tezislərin konseptual yanaşma olmaqla bərabər, həm də özündə sosial-iqtisadi, o cümlədən büdcə siyasətinin hədəf və prinsiplərini çox aydın şəkildə əks etdirdiyini vurğulayıb.



**Ölkənin valyuta ehtiyatları 71 milyard ABŞ dollarına çatıb**

A.Əmiraslanov 2024-cü ilin büdcəsinin ötən ildə müxtəlif istiqamətlər üzrə dövlət siyasətinin reallaşması üçün etibarlı maliyyə təminatı olduğunu və əlverişli makroiqtisadi şəraitdə icra olunduğunu söyləyib. Qeyd edib ki, büdcənin icrası 4,1 faizlik iqtisadi artımla, 2,2 faizlik ortaillik inflyasiya ilə müşayiət edilib. Komitə sədri büdcənin gəlir və xərcləri üzrə icrasını, büdcə kəsirinin və dövlət borcunun səviyyəsini, büdcə qaydasına tam riayət edilməsini müsbət dəyərləndirib.

Maliyyə naziri Sahil Babayev çıxış edərək 2024-cü il dövlət büdcəsinin icrası haqqında məlumat verib. O, bildirib ki, qlobal və regional müstəvidə cərəyan edən hadisələr fonunda 2024-cü il Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmiz üçün sabitlik, təhlükəsizlik, sosial-iqtisadi inkişaf göstəriciləri və nailiyyətlərlə yadda qalıb. Dövlət büdcəsində nəzərdə tutulmuş gəlir və xərclər müsbət dinamika ilə icra olunub. Ötən il neft və qeyri-neft sektorları üzrə ümumi daxili məhsulun (ÜDM) istehsalında artım qeydə alınıb, illik inflyasiya hədəf diapazonunda qərarlaşıb, cari əməliyyatlar balansında profisit formalaşıb, milli valyutanın sabitliyi qorunub, valyuta ehtiyatları beynəlxalq normaları və xarici borc göstəricisini əhəmiyyətli dərəcədə üstələyib.

Nazir diqqətə çatdırıb ki, 2024-cü ildə Azərbaycanda ümumi daxili məhsul real ifadədə 4,1 faiz artaraq, 121,3 milyard manat proqnoza qarşı 126,3 milyard manat təşkil edib. Ötən ildə adambaşına düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat olub. Qeyri-neft-qaz sektorunda 6,2 faizlik real artım qeydə alınıb. Fiskal və monetar siyasətlərin sıx əlaqələndirilməsi milli valyutanın mübadilə məzənnəsinin sabitliyini təmin edib. Ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 6,4 faiz artaraq 83,1 milyard manat təşkil edib, hər nəfərə düşən gəlir orta hesabla 8144,1 manata çatıb. Cari ilin əvvəlinə ölkənin valyuta ehtiyatları 71 milyard ABŞ dolları təşkil edib. “Azeri Light” markalı neftin bir barelinin orta illik qiyməti 82,8 ABŞ dolları səviyyəsində qərarlaşıb, 2024-cü ilin dövlət büdcəsi üzrə göstəricilərlə müqayisədə 10,5 faiz artıb. O, qeyd edib ki, ötən il çoxsaylı infrastruktur layihələri, Böyük Qayıdış proqramı, ölkənin sosial-iqtisadi inkişaf strategiyasından irəli gələn tapşırıqlar icra olunub, habelə əhalinin sosial, tibbi müdafiəsini təmin edən sosial islahatlar davam etdirilib, bununla yanaşı fiskal çərçivə də qorunub.

**Dövlət büdcəsinin mədaxili 37,2 milyard manat olub**

Bildirilib ki, 2024-cü ildə dövlət büdcəsinin mədaxili 37,2 milyard manat olmaqla, proqnoza qarşı 774 milyon manat və ya 2,1 faiz, 2023-cü illə müqayisədə isə 1,9 milyard manat və ya 5,5 faiz çox icra edilib. Qeyri-neft sektoru üzrə daxilolmalar proqnozla müqayisədə 573 milyon manat və ya 3,1 faiz çox icra olunaraq 19,2 milyard manat təşkil edib. Dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorundan daxilolmaların payı 3,1 faiz-bəndi artaraq, 48,5 faizdən 51,6 faizə yüksəlib.

Ötən il vergi orqanları xətti ilə büdcəyə 15,8 milyard manat, gömrük orqanları xətti ilə isə 6,6 milyard manat vəsait təmin edilib. Vergi orqanları xətti ilə daxil olan vəsaitin 11 milyard manatı və ya 70 faizi qeyri-neft, 4,8 milyard manatı və ya 30 faizi neft sektorunun payına düşüb. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 548 milyon manat və ya 2023-cü illə müqayisədə 67 milyon manat çox olub. Hesabat dövründə Dövlət Neft Fondundan dövlət büdcəsinə nəzərdə tutulduğu həcmdə, yəni 12,8 milyard manat transfert edilib. Bütövlükdə, dövlət büdcəsinin xərcləri 37 milyard 713,6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 5,1 faiz az və müvafiq olaraq dövlət büdcəsinin kəsiri 551,8 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 6,1 dəfə az olub.

Çıxışının sonunda nazir 2024-cü ildə dövlət və icmal büdcələrinin icrası zamanı Prezident İlham Əliyev tərəfindən hökumət qarşısında qoyulan vəzifələrin maliyyələşdirilməsinin təmin edildiyini bildirib.

**Hesablama Palatasının rəyi...**

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında qanun layihəsinə və Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrasına dair illik hesabata palatanın rəyini təqdim edib. Palata sədri qanun layihəsinin və hesabatın ümumilikdə mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlandığını bildirib. Ötən ilin dövlət büdcəsinin icrasının büdcə parametrlərinə, ölkənin strateji sənədlərinə uyğunluğu barədə ali audit orqanın mövqeyini diqqətə çatdıran Vüqar Gülməmmədov gəlir və xərc göstəricilərindəki məqamlardan söz açıb.

Bildirilib ki, Hesablama Palatası tərəfindən 2024-cü ilin dövlət büdcəsinin icrasına dair rəyin tərtib edilməsi zamanı 173 qurum üzrə 32,1 milyard manatı əhatə edən və vəsaitlərin icrasını təsdiq edən xəzinə üzləşmə aktları və digər sənədlər nəzərdən keçirilib ki, bu da icra edilmiş dövlət büdcəsi xərclərinin 85,2 faizini təşkil edir. Ümumilikdə, təhlilin əhatə dairəsi əvvəlki ilə nəzərən 0,9 milyard manat artıb.

2024-cü ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə dövlət büdcəsinin gəlirləri çox icra edilib, layihədə göstərilmiş mədaxil mənbələrinə münasibətdə proqnoz göstəricilər 15 mənbə üzrə artıqlaması ilə, 4 mənbə üzrə kəsirlə, 3 mənbə üzrə isə proqnozla eyni səviyyədə yerinə yetirilib.

Müzakirələr zamanı çıxış edən millət vəkilləri 2024-cü ilin dövlət büdcəsinin icrası ilə bağlı hesabatın yüksək səviyyədə hazırlandığını, iqtisadi hədəflərə uyğun olduğunu, habelə Hesablama Palatasının rəyinin obyektiv və dolğun şəkildə tərtib edildiyini bildiriblər, bəzi qeyd və təkliflərini də səsləndiriblər. Sonda qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Sonra deputatlar gündəlikdə olan digər məsələləri müzakirə ediblər.

*Nardar BAYRAMLI*

# Dövlətinin və xalqının XİLASKARI

## 1993-cü ilin 4 iyun hadisələrindən 22 il ötür

1990-cı illərin əvvəli... Əksər coğrafiyalarda olduğu kimi, keçmiş SSRİ-nin dağılması ilə müstəqillik qazanmış ölkələrdə də çətin və ağır günlər yaşanırdı. Azərbaycan xalqı da bir əsrdə ikinci dəfə öz müstəqilliyinə qovuşmaq imkanı əldə etmişdi. Amma bu sevinc çox qısa zamanda təhlükə, qorxu, həyəcanla əvəz olundu - Azərbaycanın müstəqilliyi və bütövlüyü naşı "siyasətçilərin", təsadüfi şəxslərin ucbatından mühüm təhdidlərlə üz-üzə qalmışdı. Yaranan dövrü 1920-ci illə müqayisə edənlər də vardı - vəziyyət o qədər acınacaqlı hala çatmışdı ki, müstəqilliyimiz, suverenliyimiz təhlükə qarşısında qalmışdı...

Bəli, SSRİ-nin dağılmasının ardından hakimiyyətə olan qüvvələrin zəifliyi, bəzi məqamlarda xəyanətkar mövqeyi və milli maraqlardan uzaq davranışları Azərbaycan üçün çətin siyasi keçid dövrü yaratmışdı - xüsusilə, Ermənistanın ölkəmizə qarşı təcavüzünün fonunda yaşanan xaos və özbaşınalıq həm siyasi, həm iqtisadi - bütövlükdə ölkədəki ümumi vəziyyətə sirayət etmişdi. Baş alıb gedən hərc-mərclik, nizami olmayan, ayrı-ayrı fərdlərin nəzarətində olan silahlı birləşmələrin özbaşınalıqları, kürsü davası dövlət mənafeyini üstələmişdi. Yaradılan silahlı qruplaşmalar kürsü davası aparan şəxslərin korporativ maraqlarının xidmətçisinə çevrilmişdi - cəbhədə düşmənə tuşlanmalı olan silah paytaxtda vəzifə davasının alətinə çevrilmişdi.

**Xalqın faciəsi üzərindən əldə olunan hakimiyyət...**

Yaranan bu sarsıdıcı vəziyyət daxili və xarici düşmənləri hərəkətə gətirmişdi - əsas hədəfi isə Azərbaycanın müstəqilliyinə qarşı istiqamətlənmişdi. Gənc respublikada hakimiyyətə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında qızğın mübarizə başlanmışdı. 1992-ci ilin mart ayında prezident Ayaz Mütəllibovu istefaya "yollayan" AXC - Müsavat cütlüyü bütünlükdə idarəçiliyi ələ almışdı. Mayın 8-də Şuşanın işğalı isə onlar üçün "göydəndüşmə" fürsətə çevrildi - 1992-ci il mayın 14-də silah gücünə hakimiyyəti tam ələ keçirən Xalq Cəbhəsi ilk gündən qeyri-sağlam fəaliyyəti ilə yadda qaldı. Bu il mayın 28-də Laçının Bəylik kəndinə köçən sakinlərlə görüşündə Prezident İlham Əliyev bildirib ki, o vaxt o dövrü yaşayan insanlar yaxşı bilir ki, Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi: "O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyü xəyanət, satqınlıq etmişdir və torpaqlarımızın işğal altına düşməsində onların böyük mənfur payı var. Məhz Laçın işğala məruz qalandan bir ay sonra onlar öz istəklərinə nail olub hakimiyyətə gəldilər, o da ölkəmiz üçün böyük bəlaya gətirib çıxarmışdır. Hakimiyyətə gəlmək üçün torpaqları satmaq, düşmənə təhvil vermək böyük cinayətdir, böyük xəyanətdir, satqınlıqdır, qorxaqlıqdır".



**Səriştəsizlik və xəyanət dövləti uçuruma sürükləyirdi...**

Məntiqsiz, bir-birini təkzib edən fərmanlar, özbaşınalıqlar və səriştəsizlik bu şəxslərin ölkəni idarə edə bilməyəcəyini göstərirdi. Problemlər getdikcə artırdı. Artıq hakimiyyətin ən yüksək ranqlarında yaranan qruplaşmalar açıq mübarizəyə girməkdən çəkinmir, hətta paytaxtda silahlı qarşıdurmalar baş verirdi. Hakimiyyət strukturlarına, o cümlədən silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Onların fəaliyyətinin nəticəsi olaraq isə artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.






1993-cü il iyunun 4-də Gəncədə sabiq korpus komandiri və AXC hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğvi ilə bağlı qərar lokal qarşıdurmaları daha da intensivləşdirdi. O zamankı müdafiə naziri Dadaş Rzayevin imzaladığı əmrə və təhvil-təslim olunması barədə qərara tabe olmayan Surət Hüseynov əmrində olan silahlı dəstə ilə Bakıya doğru istiqamət aldı. Gəncədə, o cümlədən Bakıya qədər bəzi rayonlarda silahlı qarşıdurmalar yaşanırdı. Vəziyyət get-gedə daha kritik hal alırdı. 709-cu briqadanı tərkisilah etmək üçün Gəncəyə göndərilən Milli Qvardiya hissələri ilə Surət Hüseynovun rəhbərliyi altında olan silahlı birlik arasında döyüş oldu. Ölkə artıq vətəndaş müharibəsini yaşayırdı.

**Xalqının tək nicatı...**

Belə çətin zamanda xalqın yeganə ümidi Naxçıvana yönəldi. Düşmən blokadasında olan Naxçıvan Muxtar Respublikasını qorumağı bacaran, Azərbaycanın xilaskarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətinin və xalqının nicat yolu oldu. İyunun 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Ali Məclisi hadisə ilə əlaqədar bəyanat verdi. Bəyanatda gəncəlilərə müraciət edilərək onların imperiya nökərlərinə layiqli cavab verəcəklərinə, müstəqilliyimizi və gənc Azərbaycan dövlətini qoruyub saxlayacaqlarına böyük inam ifadə olunurdu. Hadisələrin bu fonunda xarici havadarları tərəfindən himayə olunan separatçı qüvvələr cənubda "Talış-Muğan Respublikası" elan etməyə səy göstərirdilər. Şimalda da bu cür qüvvələrin fəallığı təkan verilirdi. Vətənin bu ağır günündə xalqın təkidli tələbi ilə Bakıya gələn Ulu Öndər çox az zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. Gəncəyə səfər edən Ulu Öndər Heydər Əliyev qısa zamanda silahlı qarşıdurmaya son verdi, separatizmin aradan qalxması üçün bütün gücünü səfərbər etdi. Ümummilli Liderimiz hər şeyi yerli-yataqlı öyrəndikdən sonra Milli Məclisin növbəti iclasında Gəncə hadisələri barədə öz qəti sözünü dedi: "Hadisələr dəhşətlidir, qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş, cinayəti təşkil etmiş adamlar hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdır".

**Milli qurtuluş, sabaha ümid...**

1993-cü il iyunun 15-də Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, Azərbaycan xalqı bir əsrdə ikinci dəfə müstəqillik əldə etdiyi bir məqamda tarixin təkrarına - müstəqilliyin itirilməsinə yol vermədi. Məhz Ümummilli Liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu. Bir çağırışla xalqının xilaskarına çevrilən Heydər Əliyev Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Həmin gün - 15 İYUN isə tariximizə MİLLİ QURTULUŞ GÜNÜ kimi daxil oldu.

Həmin günlər özündə tarixi bir prosesin - Azərbaycan dövlətçiliyinin əsasını əks etdirməklə yanaşı, böyük fəlsəfi məna daşıdı. Millətinin bir əsrdə qurduğu ikinci müstəqil dövlətini yaşadan Ümummilli Lider qayıdışı ilə problemlər məngənəsində qıvrılan Azərbaycanı regionun liderinə çevirdi.

**Güclü, bütöv, lider Azərbaycan !!!**

Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra ölkədəki AXC-Müsavat cütlüyündən miras qalmış xaos və anarxiya, Azərbaycanın dünya xəritəsindən silinməsi xülyası qısa zamanda aradan qaldırıldı. Tezliklə ordu quruculuğu sahəsində mühüm işlər görüldü. Cəbhədə atəşkəs elan olundu. Dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı alındı. Milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, cəmiyyətin demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli tədbirlər həyata keçirildi. Dünyanın tanınmış neft şirkətləri ilə "Əsrin müqaviləsi" və digər kontraktlar imzalandı, bütün sahələrdə islahatlar başladı. Azərbaycana investisiya axınının əsası qoyuldu. Müstəqil Azərbaycanın yeni Konstitusiyası qəbul edildi... Bir sözlə, Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə vüsət almağa başladı. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və sabitliyi, inkişafı özündə ehtiva edən siyasi kurs 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildi. 2020-ci il Vətən müharibəsi, 2023-cü il antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi təmin olundu. Bu gün ölkəmiz sözün əsl mənasında yerləşdiyi ərazidə lider ölkədir - bu isə Prezident İlham Əliyevin yürütdüyü düzgün, davamlı və qətiyyətli siyasi kursun əldə etdiyi nailiyyətdir.

*Pərviz SADAYOĞLU*

# "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar"

## Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə bu mövzuda beynəlxalq elmi konfrans keçirilib

İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakı şəhərində "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbir BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq konfransıdır.

Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində tanınmış mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunan səfirləri, eləcə də millət vəkilləri iştirak ediblər.

### Məqsəd ədalətli və bərabər gələcəyin qurulmasıdır

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan bu təşkilat yaradıldığı vaxtdan bəri bütün dünyada iqtisadi təşəbbüslərin təşviqi üçün qlobal bir platformaya çevrilib və iqlim dəyişikliyindən əziyyət çəkən insanlar üçün bir ümid mənbəyi olub: "Bu konfrans əvvəlki konfranslarımızdan bir neçə cəhətdən fərqlənir. Xüsusilə də, qonaqlarımızın müstəmləkəçiliyin acınacaqlı vəziyyətinə elmi yanaşması və bu məsələni beynəlxalq təşkilatlar prizmasından dəyərləndirməsi baxımından. Bildiyiniz kimi, təzyiq altında yaşayan bir çox nümayəndə Müxalifət Hərəkatı platformasından istifadə edərək öz mövqelərini və səslərini, eləcə də müstəmləkə siyasətinin ağır nəticələrini beynəlxalq ictimaiyyətə çatdırıblar. Bu dəfə isə söz elm adamlarınındır. Üstəlik, bizim xüsusi üstünlüyümüz ondadır ki, bəzi dəvət olunmuş qonaqlar bu məsələdə BMT-nin müvafiq strukturlarında bilavasitə iştirak edirlər. Amma bu, təkcə akademik maraq predmeti deyil. Bu, müasir inanclar baxımından da təcili bir məsələdir".




A.Abbasov qeyd edib ki, kolonializmlə mübarizənin məqsədi ədalətli və bərabər gələcəyin qurulmasıdır. Bu gün hələ də müxtəlif regionlarda kolonializm siyasətinin təzahürlərinə rast gəlirik. Bəzən siyasi, bəzən isə iqtisadi, maliyyə, mədəni və hüquqi strukturlar üzərindən hökmranlıq edilir, insanlar asılı hala salınır. "Son iki il ərzində biz Quadalupe, Mayotta, Yamayka, Fransız Qvianası, Reyunion, Korsika, Martiniq və digər müstəmləkə müharibələrinin dayandırılması ilə bağlı təxminən 30 beynəlxalq tədbir təşkil etmişik", - deyə A.Abbasov əlavə edib.

Onun sözlərinə görə, bu konfrans müstəmləkə ideologiyalarının necə qurulduğunu, institusionallaşdırıldığını və əsaslandırıldığını, daha da vacibi onların təsirlərinin müasir dünya həyatını necə formalaşdırmağa davam etdiyini daha dərindən anlamağı hədəfləyir: "Məqsədimiz bütün xalqların öz müqəddəratını təyinetmə, bərabərlik və mədəni muxtariyyət hüququna tam hörmət edən bir dünyanın intellektual və mənəvi əsaslarını dəstəkləməkdir".



### Müstəmləkəçilik beynəlxalq hüquq məsələsi kimi...

Çıxış edən BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun (PFPAD) üzvü June Christine Marie Soomer bildirib ki, elm sahəsi uzun illər boyunca yalnız inkişaf və tərəqqi ilə deyil, həm də müxtəlif ictimai-siyasi ideologiyaların təbliği və istismarı ilə də əlaqələndirilib. Bu gün dünyanın bir çox regionlarında, xüsusilə də tarixən koloniyalaşdırılmış ölkələrdə elmin dekolonizasiyası ilə bağlı məsələlər gündəmdədir. Onun sözlərinə görə, kolonializmin zorakılığı, insanlıqdan kənar münasibətləri və ideoloji təsiri hələ də bir çox elmi və institusional strukturlarda davam etməkdədir: "Hazırda elmi tədqiqatlarda və texnologiyada keçmiş və mövcud imperialist güclərin üstünlüyü davam edir. Bu üstünlük yalnız iqtisadi və texnoloji deyil, həm də mədəni önyarğılar və elmi diskursda özünü göstərən struktur bərabərsizliklər şəklində təzahür edir. Təəssüf ki, elm hələ də tam şəkildə dekolonizasiya olunmayıb, bu isə qlobal miqyasda elmi bərabərsizliyin davam etməsinə səbəb olur".

ABŞ-ı təmsil edən idarəçilik üzrə beynəlxalq məsləhətçi Carlyle Corbin isə deyib ki, müstəmləkəçilik beynəlxalq hüquq məsələsi kimi BMT Nizamnaməsində əks olunub. 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılmasından sonra dekolonizasiya (müstəmləkəçiliyin ləğvi) üç əsas mərhələdə baş verib. Dekolonizasiya bu gün də BMT-nin diqqət mərkəzindədir və bir sıra ərazilərlə bağlı proseslər hələ də davam edir.



Əlcəzair Universitetinin elmi-tədqiqat işləri üzrə rəhbəri, professor Chakib Benhafri bildirib ki, bugünkü internet məkanında və kütləvi informasiya vasitələrində, xüsusilə fransız televiziya kanallarında, Afrikaya dair müsbət imiclərə nadir hallarda rast gəlinir: "Həmçinin Əlcəzairlə bağlı media təsvirlərinin ideoloji kökləri nəzərəçarpacaq dərəcədə özünü göstərir. Məsələn, bəzi siyasi fiqurlar tərəfindən səsləndirilmiş fikirlər buna nümunə ola bilər - Əlcəzairin əsl tarixi yoxdur. Əlcəzair bir millət olaraq heç vaxt mövcud olmayıb. Əlcəzairi Fransa yaradıb və əslində yenidən sahiblənib". Bu fikir açıq şəkildə Qollist yanaşmanın davamıdır. Şarl de Qollun Əlcəzairlə bağlı sərgilədiyi mövqe, bu gün Fransa Prezidenti Emmanuel Makronun proqramlarında da açıq şəkildə təzahür edir. Bu yanaşma keçmiş koloniyalara baxışın hələ də dəyişmədiyini göstərir. Tarix və kollektiv yaddaş hələ də bəzi dairələr tərəfindən manipulyasiya edilir".

Hazırkı dünyada bu cür düşüncələrin ifşasının və tənqidinin vacib olduğuna diqqət çəkən Chakib Benhafri əlavə edib ki, bu, təkcə akademik məsələ deyil, həm də beynəlxalq münasibətlər, tarixi ədalət və qlobal cəmiyyətin gələcəyi ilə bağlı məsuliyyətli mövqedir.

### Afrika mənşəli xalqların hüquqlarının müdafiəsi aktual olaraq qalır

BMT-nin Afrika Əsilli Xalqların Daimi Forumunun (PFPAD) üzvü, kolumbiyalı pastor Elias Murillo Martinez isə çıxışında qeyd edib ki, Afrika mənşəli xalqların hüquqlarının müdafiəsi və qlobal ədalətsizliklərə qarşı mübarizəsi bu gün də aktual olaraq qalır. Onun sözlərinə görə, dünyada irqçilik və bərabərsizliklərə qarşı heç kim tam immunitetə malik deyil: "Afrika mənşəli xalqlar isə tarixən müstəmləkəçilik və köləlik siyasətinin ilk və ən ağır qurbanları olublar. Bu gün də həmin siyasətlərin nəticələri davam edir. Hazırda miqrasiya məsələləri, siyasi məqsədlərlə alətə çevrilmiş insan hüquqları, irqçilik və xüsusilə ksenofobiya qlobal çağırışlara çevrilib. İqlim böhranı, enerji keçidi və süni intellektin inkişafı kimi müasir proseslər də sosial bərabərsizliklərə və irqçiliyə yeni təsir formaları yaradır. Bu problemlərin aradan qaldırılması üçün Afrika mənşəli insanların tarixi, təcrübəsi və mövqeyi nəzərə alınmalı, onların qlobal qərarların qəbulunda daha fəal iştirakı təmin olunmalıdır".

Konfransda digər çıxış edənlər də mövzu ilə bağlı fikirlərini bildiriblər. Çıxışlarda müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara münasibətdə həyata keçirdikləri siyasət, tətbiq olunan ayrı-seçkilik metodları, habelə neokolonializmin tərkib hissəsi olan tətbiq edilən siyasi, iqtisadi və mədəni məhdudiyyətlər, milli kimliyin məqsədli şəkildə itirilməsi siyasəti elmi və metodoloji yanaşmalar əsasında təhlil olunub.

Tədbirdə beynəlxalq hüququn, habelə BMT qətnamələrinin tələbi olan dekolonizasiya prosesinin yekunlaşdırılmasının kolonial güclər tərəfindən qarşısının alınması və bu kontekstdə beynəlxalq təşkilatlar çərçivəsində mövcud imkanlardan istifadə, təsirli mexanizmlərin həyata keçirilməsi, həmçinin sistemli bərabərsizliklərin beynəlxalq təşkilatlar səviyyəsində həlli yolları və s. müzakirə olunub.

*Nardar BAYRAMLI*

# Enerji diplomatiyasının yeni uğurları



## Bakı Enerji Forumu Azərbaycanın nümunəvi tərəfdaş olduğunu bir daha təsdiqlədi

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Baku Energy Forumunda Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi hadisələrdən biri də yeni tarixi sazişlərin imzalanması oldu. Enerji Həftəsi çərçivəsində SOCAR, TPAO, "Exxon Mobil Corporation", MOL, ITOCHU və "Gran Tierra Energy" şirkətləri ilə imzalanmış sənədlər enerji sahəsində yeni əməkdaşlıq mərhələsinin başlandığını şərtləndirir.

### 2,9 milyard dollar dəyərində yeni investisiya sazişi...

Bakı Forumunda qlobal enerji ailəsi və Azərbaycan üçün əlamətdar sazişlərdən biri "Şahdəniz Kompressiya" layihəsi ilə bağlı yekun investisiya qərarının imzalanmasıdır. "Şahdəniz" konsorsiumu tərəfindən imzalanan saziş Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz yatağının işlənməsinin növbəti mərhələsi olan yeni "Şahdəniz Kompressiya" (ŞDK) layihəsində yeni əməkdaşlıq üçün potensialların səfərbər olunmasını nəzərdə tutur.

Dəyəri 2,9 milyard dollar olan ŞDK layihəsi yatağın işlənməsinin əvvəlki iki mərhələsinin davamıdır. Bu layihədə məqsəd yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Tikinti işlərinin 2025-ci ilin sonlarında başlanacağı planlaşdırılır. Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə ŞDA-dan, 2030-cu ildə isə ŞDB platformasından hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı gözlənilir. Tikinti işləri ölkə daxilində yerli resurslardan istifadə edilməklə həyata keçiriləcək və 4000-ə qədər iş yeri yaradılacaq. Layihənin yerli tikinti resurslarından və təcrübədən istifadəyə üstünlük verməsi Azərbaycanda iqtisadi artımın dəstəklənməsinə də töhfə verəcək.

Bp şirkətinin regional prezidenti Qari Counz sazişin əhəmiyyətindən danışarkən qeyd edib ki, layihə dünyanın ən böyük və mürəkkəb qaz yataqlarından biri olan "Şahdəniz"in qarşıdan gələn onilliklər ərzində qlobal iri enerji təchizatçısı kimi qalmasına və bu nəhəng yataqdan maksimum ümumi hasilat əldə etməyə imkan yaradacaq.

### Azərbaycan Aİ üçün ən yaxın müttəfiqdir

Bakı Forumunu nümunəvi tədbir kimi dəyərləndirən Avropa Komissiyasının Beynəlxalq Əlaqələr İdarəsinin enerji üzrə baş direktoru Kristina Lobillo Borrero bildirib ki, Azərbaycan həm bərpaolunan, həm də qazıntı yanacaqlarında fəal və örnəkverici tərəfdaş mövqeyi qazanıb. Etibarlı partnyorların sırasında Azərbaycan ən sadiq dövlət statusuna malikdir və bunu öz etibarlı təchizatçı fəaliyyəti ilə təsdiqləyib. Eyni zamanda, hazırda bərpaolunan enerjinin istehsalı və nəqli proseslərində də Azərbaycan Avropa İttifaqı üçün ən yaxın müttəfiqdir. "Yaşıl enerji"nin nəqli üzrə əldə edilmiş razılaşmalar da ona dəlalət edir ki, Bakı beynəlxalq koalisiyada təşəbbüskarlıq və liderlik üçün əlverişli məkandır. Yeni enerjiyə keçid strategiyası üzrə sıx əməkdaşlıq platformasında öncül ideyalarla çıxış edən Azərbaycan həm də şəffaflıq, təmiz texnologiya, təchizatın təhlükəsizliyi üzərində işləməkdə Aİ üçün ən yaxşı tərəfdaşdır.



### Xarici şirkətlər Qarabağda

Azərbaycan enerjinin yeni səhifəsi olan bərpaolunan resursların istehsalında yüksək nəticələr əldə etməyə iddialıdır. Dünyanın ən nüfuzlu "yaşıl enerji" korporasiyaları ilə qurulmuş yeni təmaslar və bünövrəsi atılmış önəmli layihələr Azərbaycanın "yaşıl enerji" gündəliyi ilə bağlı iddialarının gerçəyə çevrilməsini təmin etməkdədir. Ötən il keçirilən "Bakı Enerji Həftəsi" çərçivəsində 1000 meqavat "yaşıl enerji" həcmində müqavilələr imzalayan Azərbaycan yeni rekorda imza atmaq yolunda qətiyyətlə irəliləyir, 30-cu Enerji Həftəsi çərçivəsində imzalanan yeni sazişlər isə "yaşıl uğura" gedən yolun daha da möhkəmlənməsinə imkan verəcək. Belə ki, yubiley sərgisində SOCAR ilə bir neçə xarici şirkət arasında imzalanan Anlaşma Memorandumları "yaşıl enerji" sahəsində Günəş və Külək Elektrik Stansiyasının inşasını nəzərdə tutur.

Həmin sazişlərin bir neçəsi azad ərazilərdə - Cəbrayıl rayonunda Günəş elektrik stansiyasının tikilməsi ilə bağlıdır ki, bu da Qarabağ və Şərqi Zəngəzurun artıq beynəlxalq enerji şirkətlərinin sərmayə planlarına daxil olduğunu təsdiqləyir. Bu prosesdə Çin, Körfəz ölkələri ilə yanaşı, Avropa dövlətləri də fəallıq göstərir. Ötən il Aİ-nin "Nobel Energy" şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə Günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzinin yaradılması nəzərdə tutulur. Bp şirkəti isə "Şəfəq" stansiyasını inşa edəcək. Həmçinin investorlar tərəfindən Laçın, Kəlbəcər ərazisində təxmini olaraq 100 MVt gücündə külək elektrik stansiyası və Zəngilan, Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsi reallaşdırılmaqdadır. Bu baxımdan, Azərbaycanın enerji siyasətinin şaxələndirilməsi Qarabağ və Şərqi Zəngəzurun dünyaya inteqrasiyasını da təmin edəcək müdrik qərar hesab edilə bilər.

### "Yaşıl körpü"-Xəzər-Qara dəniz-Avropa kabeli

"Yaşıl enerji" sektoruna yatırılan sərmayələr öz real təsdiqini yaşıl stansiyaların qısa zamanda ərsəyə gəlməsi ilə nəticələnməkdədir. Təkcə 2025-ci ildə 240 meqavat gücündə külək elektrik stansiyası istifadəyə veriləcək, 200 meqavat gücündə üç günəş elektrik stansiyasının tikintisinə başlanılacaq. Ümumilikdə, növbəti iki il ərzində 10 günəş və külək elektrik stansiyasının istismara verilməsi ilə bərpaolunan enerjinin inkişafının birinci mərhələsi tamamlanacaq. Energetika naziri Pərviz Şahbazovun sözlərinə görə, xarici şirkətlərlə imzalanmış 2,7 milyard dollar investisiya dəyəri olan yaşıl layihələrin icrası sayəsində bərpaolunan enerjinin payı 2027-ci ildə 33,7 faizə çatacaq. Hədəf bu göstəricini 2030-cu ildə 38 faizə, 2035-ci ildə isə 42,5 faizə yüksəltməkdir.

"Yaşıl enerji"nin ixracı ilə bağlı beynəlxalq əməkdaşlıq bloku da möhkəmlənir, Xəzər-Qara dəniz-Avropa kabelinin çəkilişi üçün hüquqi-iqtisadi planlar nəzərdə tutulan plan üzrə irəliləyir. Azərbaycan Prezidentinin əzmkar iradəsi sayəsində "yaşıl enerji"nin tədarükü və ötürülməsində ölkəmizin aparıcı mövqeyini təmin etməyə yönəlmiş strateji baxışına uyğun olaraq, hazırda Xəzər hövzəsini, Mərkəzi Asiya, Türkiyə və Avropanı əhatə edən genişmiqyaslı "yaşıl enerji dəhliz"ləri layihələri həyata keçirilir.

Beləliklə, bərpaolunan enerji istehsalına rekord göstəricilərin əldə olunması növbəti 5 il ərzində quruda və dənizdə yaradılacaq 6 giqavatdan çox "yaşıl enerji gücü"nün 4 giqavatının ixraca yönəldilməsini təmin edəcək. Həmçinin "yaşıl enerji zonası" - Naxçıvanın 6 giqavat bərpaolunan enerji potensialının ən azı 1 giqavatı ixrac ediləcək.

**ELBRUS CƏFƏRLİ**

# Rəqəmsal polad magistral

## Azərbaycan TRASECA və Orta Dəhlizdə geniş rəqəmsal platforma yaratmaqdadır

Azərbaycan mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşir və regionun əlaqələndirilməsində əsas rol oynayır. Nəqliyyat infrastrukturlarını müasirləşdirən Azərbaycan qlobal dəhlizlərin ən mühüm tərkib hissəsinə çevrilən dəmir yolu nəqliyyatının da modernləşdirilməsi istiqamətində tərəfdaş ölkələrlə sıx platforma yaratmaqdadır. Bu barədə Bakıda keçirilən 22-ci Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Sərgisində Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizinin (TRASECA) baş katibi Asset Assavbayev bildirib. Qeyd edib ki, Azərbaycan həm də nəqliyyat sektorunun, o cümlədən dəmir yolunun rəqəmsallaşdırılmasında fəal rol oynayır. Hazırda nəqliyyat sahəsində texnologiya dəyişikliklərin sürətlə baş verdiyi bir dövrdə rəqəmsallaşma hər bir ölkə üçün əhəmiyyət daşıyır və bu prosesdə Azərbaycanın təcrübəsini öyrənmək uğurlu imkanlar deməkdir.

### Dəmir yolunda rəqəmsallaşma nədir?



Müasir dövrdə nəqliyyatın idarə edilməsində rəqəmsal texnologiyaların tətbiqi və infrastrukturun elektronlaşdırılması dünya ölkələrinin qarşısında duran əsas çağırışlardandır. Rəqəmsallaşma müasir İT imkanlarından istifadə etməklə məlumatların daha dəqiqliyi, müştərilərin vaxtına qənaət edilməsi, ölkələrarası inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, qatarların onlayn izlənilməsi və s. kimi funksionallığa şərait yaradır. Həmçinin əməliyyat səmərəliliyinin, rəqabət qabiliyyətinin artırılması baxımından əhəmiyyət kəsb edir. Qabaqcıl rəqəmsal texnologiyalardan istifadə həm də dəmir yolu nəqliyyatında kibertəhlükəsizliyin yüksək səviyyədə təmin olunması baxımından da xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanın regional tranzit dəhlizlərindəki rolunun artması rəqəmsallaşma ilə bağlı tədbirləri də həyata keçirməsini zəruri edir. Bunun üçün zəruri infrastrukturların yaradılması, fiberoptik şəbəkə sisteminin təmin edilməsi əsas şərtlərdən biridir. Asiya Bankının Mərkəzi və Qərbi Asiya üzrə regional direktoru Yevgeni Jukov bildirib ki, modernləşdirilmiş rəqəmsal dəmir yolu sistemi Şərqi və Mərkəzi Asiya iqtisadiyyatlarının Qafqaz və Avropa ilə əlaqələndirilməsində mühüm rol oynayır. Bu kontekstdə rəqəmsal transformasiya bu dəhlizdə Azərbaycanın rolunu da dəstəkləyəcək.

Qeyd edək ki, Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika Sərgisində Azərbaycanın nəqliyyat-logistika və tranzit imkanlarından bəhs edilərkən ölkəmizin Avropa, Mərkəzi Asiya və Çin arasında ən qısa və təhlükəsiz tranzit ölkəsi kimi mövqeyi xüsusi vurğulanıb, bu qlobal nəqliyyat potensialının artırılması üçün yeni innovativ səylərin birləşdirilməsinin vacibliyinə toxunulub. Qeyd edilib ki, Azərbaycan Orta Dəhlizdə fəallığını artırmaq üçün öz nəqliyyat infrastrukturunu tam yeniləşdirməkdədir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi, Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının yükgötürmə və yükötürmə gücünün artırılması, yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi üçün əhəmiyyətli tədbirlərin görülməsi Orta Dəhlizin perspektiv güc balansına hesablanıb. Əlçt Azad İqtisadi Zonasının yaradılması, dəmir yolu infrastrukturlarının şaxələndirilməsi və modernləşdirilməsi və digər innovativ həllər rəqəmsallaşma strategiyasının tərkib hissəsidir.

### "Maneəsiz Rəqəmsal Dəhliz" sistemi qurulur



Orta Dəhliz ailəsi üçün hazırda həllivacib olan əsas məsələlərdən biri vahid rəqəmsal platformanın yaradılmasıdır. Bu platforma çərçivəsində bütün ölkələrin rəqəmsal sistemlərinin inteqrasiyası əsas prioritetlərdən biridir və layihədə iştirak edən ölkələrin hər biri rəqəmsallaşma ilə bağlı öz siyasətlərini birləşdirməyə çalışacaq. Bir müddət əvvəl həmin ekosistemin altmodeli olan vahid multimodal xidmət - Rəqəmsal Ticarət Koridoru (Digital Trade Corridor) yaradılıb ki, Azərbaycan və Qazaxıstanın dəmir yollarının informasiya sistemləri gömrük modullu bu sistemə inteqrasiya olunub, Gürcüstan dəmir yollarının da sistemə qoşulması planlaşdırılır. Digər ölkələrin də növbəti ilə qədər bu rəqəmsal sistemə inteqrasiyasının başa çatdırılması və 2025-ci ildə "Maneəsiz Rəqəmsal Dəhliz"in işə salınması nəzərdə tutulur. Bu sistemin maliyyə təminatında Asiya İnkişaf Bankının aparıcı rol oynaması təqdir edilə bilər. Bu, həm də "Avrasiya Nəqliyyat Marşrutu"nun rəqəmsallaşmasında və "Maneəsiz Rəqəmsal Dəhliz" sisteminin qurulmasında bankın iştirakçılığı deməkdir.

Beləliklə, Azərbaycan nəqliyyat sektorunun polad magistrallarının rəqəmsallaşdırılması Orta Dəhlizin də rəqəmsal arxitekturasının müasirləşməsinə imkan yaradacaq.

**ELBRUS CƏFƏRLİ**

# İstanbul danışıqları...

## Rusiya tələb edir, Ukrayna geri çəkilmir...




İyunun 2-də İstanbulda keçirilən Rusiya-Ukrayna danışıqlarının növbəti raundu mühüm maraq kəsb edirdi - xüsusilə, son hadisələr tərəflər arasında razılaşmanın çətin baştutma ehtimalını ortaya çıxarırdı. Xatırladaq ki, son bir neçə gündə Rusiya və Ukrayna bir-birinin ərazisindəki strateji obyektlərə, hərbi bazalara və şəhərlərə intensiv raket və dron hücumları həyata keçiriblər. Rusiyanın Murmansk, İrkutsk və Ryazan vilayətlərindəki hərbi aerodromlara qarşı həyata keçirilən dron əməliyyatı, Ukraynanın Jitomir bölgəsində yerləşən hərbi bazaya, o cümlədən Kiyev və Nikolayev bölgələrində enerji obyektlərinə raket zərbəsi endirilməsi müharibənin təhlükəli fazaya keçidi ehtimalını gücləndirirdi. Belə bir vəziyyətdə münaqişə tərəflərinin masa arxasında razılıq əldə etməsi mümkünsüz görünürdü - iyunun 2 -də İstanbulda baş tutan danışıqlarda müharibənin dayandırılması və dayanıqlı atəşkəsi təmin etmək üçün tərəflər bir-birinə şərtləri ehtiva edən memorandum təqdim ediblər.

## Şərtlər nədən ibarətdir?



Rusiya və Ukraynanın memorandumundakı şərtlərin əksəriyyəti, demək olar ki, bir-biri ilə ziddiyyət təşkil edir. Bu baxımdan görüşdən öncə də bir çox siyasi mütəxəssislər yaxın zamanlarda hər hansı önəmli məsələ üzərində ortaq məxrəcə gəlinməsini qeyri-real sayırdılar. Paralel olaraq həm Rusiya, həm də Ukrayna öz tələblərində israrlıdır. Hazırda nə Moskvanın, nə də Kiyevin güzəştə gedəcəyi gözlənilmir. Şərtlərə gəlincə isə, Rusiyanın şərtləri belədir:

- Krım, Donetsk, Luqansk, Zaporojye və Xerson vilayətlərinin Rusiya Federasiyasının tərkibinə daxil olmasının beynəlxalq-hüquqi tanınması, bu ərazilərdən Ukrayna Silahlı Qüvvələrinin və digər silahlı birləşmələrin tam çıxarılması,

- Ukraynanın neytral statusu: hərbi ittifaqlara və koalisiyalara daxil olmamaq, ərazidə üçüncü dövlətlərin hərbi qüvvələrini yerləşdirməmək, gələcəkdə Qərb ölkələri ilə hərbi müqavilələr və sazişlər imzalamamaq,

- Nüvə və digər kütləvi qırğın silahlarından imtina etmək və ərazisində onların yerləşdirilməsinə, tranzitinə və qəbuluna imkan verməmək,

- Ukrayna Silahlı Qüvvələrinin və digər hərbi birləşmələrin, silahların və hərbi texnikanın sayını məhdudlaşdırmaq, eyni zamanda Ukrayna SQ və Milli Qvardiyasında millətçi birləşmələri buraxmaq,

- Rus və rusdilli əhalinin hüquq və azadlıqlarını tam təmin etmək, rus dilinə rəsmi status vermək,

- "Nasizmin" və "neonasizmin" təbliğatına imkan verməmək, millətçi təşkilatlar və partiyaları ləğv etmək,

- Səfərbərlikdən imtina etmək və demobilizasiya prosesinə başlamaq, Ukraynaya xarici hərbi texnika, silah və yardımın, o cümlədən peyk rabitəsi və kəşfiyyat məlumatlarının verilməsini dayandırmaq,

Ukraynanın şərtləri isə budur:

- Quruda, dənizdə və havada tam atəşkəs,

- "Hamını hamıya" prinsipi üzrə əsir mübadiləsi,

- Ukrayna üçün beynəlxalq təhlükəsizlik zəmanətləri,

- Danışıqlarda beynəlxalq ictimaiyyətin iştirakı,

- Kiyevin neytral statusdan imtinası,

- 2014-cü ildən Ukraynanın itirdiyi ərazilərin Rusiya ərazisi kimi tanınmaması,

- Rusiyaya qarşı sanksiyaların mərhələli şəkildə aradan qaldırılması və onların təkrar tətbiq olunması imkanının saxlanılması,

- Dövlət başçılarının görüşünün təşkili.

## Növbəti əsir mübadiləsi

İstanbulda Türkiyə, Rusiya və Ukrayna heyətləri arasındakı görüşdən sonra tərəflər toplantının nəticələrinə dair açıqlama veriblər. Ukraynanın müdafiə naziri Rustem Umerov jurnalistlərə açıqlamasında bildirib ki, görüşdə Ukrayna tərəfi bütün əsirlərin azad edilməsini və əsir düşən uşaqların geri qaytarılmasını tələb edib. Eyni zamanda Umerov atəşkəs, humanitar yardım və liderlərin ikitərəfli görüşü ilə bağlı məsələlərin də əsas müzakirə mövzusu olduğunu qeyd edib. "Birinci məqam atəşkəsdir. İkincisi, insanlarımızın, məhbusların, oğurlanmış uşaqların azad edilməsidir. Üçüncüsü, liderlərin görüşüdür," - deyə R.Umerov vurğulayıb. Lakin O, yalnız əsirlərin mübadiləsi məsələsində müsbət irəliləyişin əldə olunduğunu bildirib. Onun sözlərinə görə, tərəflər 18-25 yaş arası bütün hərbi qulluqçuların mübadiləsi və 6000-6000 prinsipi ilə ölü cəsədlərin qaytarılması barədə razılığa gəliblər. Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski isə bildirib ki, Rusiya tərəfi meyitlərin toplanması üçün Ukrayna ilə 2-3 günlük cəbhənin müxtəlif istiqamətlərində atəşkəsə hazırdır.



## Görüş nə ilə yadda qaldı?

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, bu görüşdə hər iki tərəf diplomatik manevrlərə əl atıb. "Budəfəki görüşdən əsas gözlənti tərəflərin atəşkəs məsələsində ortaq məxrəcə gəlməsi idi. Ancaq bu, o qədər də asan deyil. Çünki nə Rusiya, nə də Ukrayna öz tələblərindən geri çəkiləcək. Bir məqamı da qeyd edim ki, bu görüş ötən İstanbul görüşündən, eləcə də fevral-mart aylarında Səudiyyə Ərəbistanında keçirilən ABŞ-Rusiya görüşlərindən kifayət qədər fərqlənir. Ər-Riyad və Ciddə şəhərində ABŞ-Rusiya görüşləri məhz Tramp administrasiyasının təşəbbüsü ilə baş tutub. Bu görüşlərdə Ukraynanın mövqeyi nəzərə alınmayıb. Mayın 16-dakı İstanbul görüşü isə məhz prezident Vladimir Putinin təşəbbüsüdür. Sözsüz ki, Kremlin belə bir təşəbbüsü irəli sürməkdə məqsədi İstanbul protokollarını yenidən aktivləşdirmək və Qərbin 30 günlük atəşkəs təklifini sıradan çıxarmaq idi," - deyə A.Nərimanlı vurğulayıb. Ekspert əlavə edib ki, ikinci İstanbul görüşündə tərəflər danışıqlar masasında öz mövqeyini gücləndirmək üçün diplomatik manevrlərə əl atıblar. "Görüşdə Rusiya və Ukrayna tərəfi hərbi əsirlərin dəyişdirilməsi və meyitlərin qarşılıqlı təhvili məsələlərində razılığa gəliblər. Hesab edirəm ki, bu ayın sonunda İstanbulda növbəti görüş də keçiriləbilər. Rusiya və Ukraynanın diplomatik masa arxasında atəşkəs və sülh məsələlərində anlaşması çətin görünsə də, hər iki tərəf danışıqları davam etdirməkdə maraqlıdır".

## Mövqeyini gücləndirmək üçün...

Ukraynanın Rusiyada son dron əməliyyatının İstanbuldakı görüşün nəticələrinə təsirinə gəlincə, A.Nərimanlı deyib ki, bu addım Ukraynanın masada mövqeyini gücləndirmək üçün atılıb: "Rusiya və Ukrayna öz şərtlərini qəbul etdirmək üçün daha çox sərt və təhlükəli tədbirlərə əl atacaqlar. Rusiya Ukraynanın, Ukrayna isə Rusiyanın ərazisinə kütləvi dron və raket hücumları təşkil edəcək. Ukraynanın Rusiyada geniş əks-səda doğuran dron əməliyyatında başlıca hədəf Rusiyanı öz maksimalist tələblərindən geri çəkməyə vadar etmək və Qərbə, xüsusilə də ABŞ-a öz gücünü nümayiş etdirmək idi".

***Yunis ABDULLAYEV***

# ABŞ əsgərlərini geri çəkəcəkmi?

## Şimal Alyansının şərq cinahı narahatdır

Ukrayna cəbhəsində yeni situasiyanın formalaşması NATO-nun şərq cinahını narahat etməkdədir. Belə ki, UKraynanın iyunun 1-də həyata keçirdiyi dron hücumları müharibəni yeni fazaya keçirə bilər. Bu isə, Rusiya ilə yaxın ərazilərdə yerləşən NATO-nun şərq qolu ölkələri üçün siqnala çevrilir. Təsadüfi deyil ki, "Buxarest doqquzluğu" ölkələrinin (Bolqarıstan, Macarıstan, Estoniya, Litva, Latviya, Polşa, Rumıniya, Slovakiya və Çexiya) və NATO-nun şimal ölkələrinin (Danimarka, İsveç, Norveç, Finlandiya və İslandiya) təhlükəsizlik məsələləri üzrə geniştərkibli sammitinin keçirildiyi Vilnüsdə yekun mətbuat konfransında çıxış edən NATO-nun Baş katibi Mark Rutte bildirib ki, ABŞ Şimali Atlantika Alyansının şərq cinahında Amerika hərbi mövcudluğunu azaltmaq niyyətində deyil. O qeyd edib ki, daim iki sualla - "ABŞ alyansın üzvü kimi hələ də kollektiv təhlükəsizliklə bağlı öhdəliklərinə sadiq qalırmı?" və "ABŞ qəfildən qoşunlarını çıxarmayacaq ki?" sualları ilə qarşılaşır. "ABŞ NATO Nizamnaməsinin 5-ci maddəsi (kollektiv müdafiə haqqında - red.) üzrə üzərinə götürdüyü öhdəliklərə əməl edir. Qoşunların çıxarılmasına gəlincə, buna dəlalət edən heç bir əlamət yoxdur", - Rutte cavabında söyləyib.

Polşa Prezidenti Anjey Duda qeyd edib ki, son aylarda onun ABŞ Prezidenti Donald Tramp və komandası ilə bir neçə dəfə danışmaq imkanı olub. "ABŞ-ın NATO-nun şərq cinahından qoşunları çıxarmaq niyyəti barədə heç bir məlumat yoxdur", - Duda vurğulayıb.

Litva Prezidenti Gitanas Nauseda isə vurğulayıb ki, ABŞ hərbçilərinin regionda olması kollektiv təhlükəsizliyin mühüm amilidir. "Ümid edirik ki, NATO-nun Haaqa sammiti bizə müsbət xəbərlər gətirəcək", - Nauseda ABŞ qoşunlarının mümkün ixtisarı ilə bağlı şayiələri şərh edib.

## Şərq cinahı...

Vurğulanmalıdır ki, NATO-nun şərq cinahı (Eastern Flank) - alyansın Rusiya ilə sərhəddə və ya onun yaxınlığında yerləşən üzv ölkələrini əhatə edir. Bu bölgə NATO-nun təhlükəsizlik baxımından xüsusi diqqət yetirdiyi sahələrdəndir. NATO-nun şərq cinahına daxil olan ölkələr əsasən Şərqi və Mərkəzi Avropada yerləşir. Bu ölkələrin siyahısına Estoniya, Latviya, Litva, Polşa, Slovakiya, Macarıstan, Rumıniya və Bolqarıstan daxildir. Çexiya və Sloveniya da bəzən bu qrupa aid edilir - region ölkəsi olan Xorvatiya isə ənənəvi olaraq cənub-şərq cinahında yer alır. Əlavə olaraq, Türkiyə də NATO-nun cənub-şərq cinahında yer alsa da, coğrafi və strateji baxımdan teztez şərq cinahı ilə əlaqələndirilir. Bu ölkələrin əksəriyyəti 2014-cü ildə Krımın ilhaqından sonra NATO-nun "çevik müdafiə" strategiyasının əsas hissəsi olublar. Alyans bu bölgələrdə əlaqələndirilmiş qüvvələr (enhanced Forward Presence - eFP) yerləşdirib, Polşa və Baltik ölkələrində isə daimi rotasiya ilə hərbi kontingent saxlanılır.




## Regiondakı NATO qüvvələri...

Bölgədəki Alyansa tabe şəxsi heyətə gəlinc, ABŞ-ın NATO-nun şərq cinahındakı hərbi iştirakı son illərdə əhəmiyyətli dərəcədə artıb. 2025-ci ilin əvvəlinə olan məlumata görə, ABŞ-ın Avropada ümumilikdə təxminən 100 min hərbi qulluqçusu yerləşdirilib. Bunlardan təxminən 20 mini Rusiya ilə sərhəddə yerləşən NATO ölkələrində - xüsusilə Polşa, Rumıniya və Baltikyanı dövlətlərdə yerləşdirilib. Əsas yerləşmələr kimi Polşanı göstərmək olar - ABŞ-ın NATO-nun şərq cinahında ən böyük hərbi iştirakı məhz buradadır. Polşada təxminən 10 min ABŞ əsgəri yerləşir. Rumıniyada isə bu say 4 min civarındadır. Baltikyanı ölkələrdə (Estoniya, Latviya, Litva) isə rotasiya əsasında hərbi qüvvələr yerləşdirir və NATO-nun çoxmillətli batalyon qruplarına aid olunur. Slovakiya, Macarıstan və Bolqarıstanda da ABŞ hərbi qüvvələri rotasiya əsasında yerləşdirilir. Bir müddət öncə yayılan məlumatlarda bildirilirdi ki, ABŞ NATO-nun şərq cinahında hərbi infrastruktur və logistika imkanlarını genişləndirmək niyyətindədir.

## Hansı dövlət nə qədər ayırır...



Artıq uzun müddətdir ki, ABŞ-ın NATO-ya münasibətdə yeni xətt yürütməsi ilə bağlı fikirlər dolaşmaqdadır. Burada əsas diqqətçəkən məqam Vaşinqtonun Avropa kontingentinin NATO-nun maliyyələşməsindəki iştirakından narazı olmasıdır. Belə ki, prezident Tramp Şimal Alyansının maliyyələşməsinin ən mühüm yükünün məhz ABŞ-ın üzərinə düşməsini ədalətli hesab etmir - bununla bağlı yekdil fikir isə maliyyələşmənin ölkələrin ÜDM-nin 5 faizi nisbətində olmasıdır.

Qeyd edək ki, NATO-nun şərq cinahında yerləşən üzv ölkələr son illərdə müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırıblar. Bu artım, Rusiya ilə sərhəddə yerləşmələri və regional təhlükəsizlik risklərinin artması ilə də əlaqələndirilir. Bəlli olduğu kimi, NATO-nun ümumi büdcəsi əsasən iki hissədən ibarətdir:

-Birgə NATO büdcəsi: Bu, alyansın ümumi fəaliyyətlərini (məsələn, qərargahların saxlanması, təlimlər və texniki infrastruktur) maliyyələşdirir. Üzv ölkələr bu büdcəyə əvvəlcədən müəyyən edilmiş kvotalar əsasında töhfə verirlər.

-Milli müdafiə xərcləri: Hər bir üzv ölkə öz milli müdafiə büdcəsini müəyyən edir və NATO-nun tövsiyəsinə əsasən, bu xərclərin ÜDM-in ən azı 2 faizini təşkil etməsi məqsədəuyğundur.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIRPI) məlumatına görə, şərq cinahı ölkələrinin 2024-cü ildə müvafiq maliyələşmələrdə iştirakına baxsaq:

- Polşa müdafiə xərclərində 4, 12, NATO büdcəsinə töhfədə isə 2,99 faiz;
- Rumıniya 2,25; 1,23;
- Macarıstan 2,11; 0.76;
- Slovakiya 2; 0,52,
- Bolqarıstan 2,04; 0,37;
- Çexiya 2,1; 1,06;
- Estoniya 3,43; 0.12;
- Latviya 3,15; 0,16;
- Litva 2,85; 0,26 faiz təşkil edir.

Göründüyü kimi, 2024-cü ildə yalnız Polşa ÜDM-in 4,1 faizini müdafiəyə ayıraraq NATO-da bu göstərici üzrə lider olub. Estoniya, Latviya və Litva kimi Baltikyanı ölkələr də müdafiə xərclərini əvvəlki dövrlərə nisbətdə əhəmiyyətli dərəcədə artırıblar. Bolqarıstan isə ilk dəfə olaraq NATO-nun 2 faiz hədəfini keçərək 2,04 faiz səviyyəsinə çatıb. Bu artımlar, NATO-nun şərq cinahında yerləşən ölkələrin regional təhlükəsizlik risklərinə qarşı daha hazırlıqlı olma səylərinin bir hissəsi kimi xarakterizə olunur.

***P.İSMAYILOV***

# Vətənpərvər gənclik uğurlu gələcək deməkdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**

## Sabaha və inkişafa hədəflənən siyasət...





Hər bir xalqın sabahı onun bu gün yetişdirdiyi gənc nəslin mənəvi-mədəni inkişafı və vətənpərvərlik ruhunda tərbiyəsi ilə sıx bağlıdır. Uğurlu gələcək üçün təməl məhz mənlik şüuru və Vətən sevgisi ilə formalaşdırılmış nəslin yetişdirilməsi ilə qoyulur. Bu baxımdan, müasir dövrdə gənclərin milli-mənəvi dəyərlərə bağlı yetişdirilməsi, onların tarixə, dilə, mədəniyyətə hörmət ruhunda formalaşdırılması dövlətin və cəmiyyətin əsas prioritetlərindən biri kimi təyin edilir. Azərbaycanın inkişaf strategiyasında da gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların milli kimliyə və dövlətçiliyə bağlı fərd kimi yetişməsi əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilir. Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafına çalışan, ölkənin yüksəlişində iştirak edən insan yetişdirmək deməkdir.

Vətəndaşlıq tərbiyəsinin bir mənbəyi də ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişməsi nəzərdə tutulur. Onlar nizam-intizamlı, savadlı olmalı, hər zaman nümunəvi davranmalı, Vətənin tarixini, coğrafiyasını, xalqının mədəniyyətini, milli adətənənələrini bilməli, bu torpağın hər daşını belə sevməlidir.

**Birgə koordinasiya**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, zəngin tarixi keçmişimizdə gənc nəslə örnək olası kifayət qədər qəhrəmanlıq səhifələrimiz var. Gənc nəsil məhz bu tarixi irsə söykənərək işıqlı gələcək qurur. Bu gələcəyin formalaşmasında əsas vasitəçi, əsas rol məhz dövlətə məxsusdur. Bu gün ölkəmizdə uğurlu gənclər siyasəti yürüdülür: “Bu siyasətin nəticəsidir ki, Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Gənclərimizin milli mənlik şüurunun inkişaf etdirilməsinə, onların vətənpərvərlik ruhunun artırılmasına çox əmək sərf edilir və edilməlidir. Vətənpərvərlik anlayışının formalaşması üçün təbliğat lap uşaq yaşlarından başlamalıdır. Daha sonra yeniyetməlik yaşlarında və gənclik illərində bu iş daha güclü şəkildə davam etdirilməlidir. Bu mənada işə bağçadan başlamaq lazımdır. Sonra proses orta məktəbdə və ali məktəbdə gücləndirilməli, daha da konkretləşdirilməlidir. Bu fəaliyyət zamanı ailədəki tərbiyənin də mühüm rolu var. Bağçadakı, orta məktəbdəki və ali məktəbdəki fəaliyyət ailə ilə paralel inkişaf etməlidir. Ailə və təhsil müəssisəsi arasında birgə koordinasiya olmalıdır. Fikrimcə, orta məktəb dərsliklərimizdə vətənpərvərlik, milli mənlik şüurunun inkişaf etdirilməsi istiqamətində mətnlərə daha çox yer ayrıla bilər. Burada pedaqoqlarımızın da üzərinə mühüm məsuliyyət düşür. Məktəblərdə həyata keçirilən tərbiyə işi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir. Onlar uşaq psixologiyasını hamıdan yaxşı başa düşürlər. Məhz buna görə də sağlam, vətənpərvər bir gəncliyin formalaşmasında müəllimlərimiz əhəmiyyətli rol oynayırlar”

**Ona görə zəruridir ki...**

Ekspert qeyd edib ki, güclü, humanist və ədalətli dövlətçilik ənənələri cəmiyyətdə vətənpərvər və hərtərəfli inkişaf etmiş gənclərin yetişməsi üçün stimuldur: “Gənclərimizin vətənpərvər olmasını istəyiriksə, ilk növbədə ədalətli və qayğıkeş, yalnız qanunlarla və humanist düşüncələrlə tənzimlənən cəmiyyət formalaşdırmalıyıq. Bunun üçün hamı çalışmalıdır. İnsanlar bir-birinə qayğıkeş, mehriban və diqqətli olmalı, sivil davranış nümayiş etdirməli, tarixən formalaşmış adət-ənənələrimizə, əxlaqi-mənəvi dəyərlərimizə hörmət və qayğı ilə yanaşmalı, cəmiyyət üçün zərərli olan əməllərdən uzaq olmalı, onlara qarşı müqavimət göstərməlidirlər. Gənclər dərk edirlər ki, Azərbaycan xalqı hər zaman ədalət, bərabərlik, qanun və sülh üçün mübarizə aparır. Gənclərimizdə milli psixologiyanın, mənəviyyatın, milli qürur və iftixar hissinin, milli özünəməxsusluğun formalaşması və tərbiyə edilməsi zəruridir - onlar milli-etnik məhdudluğa qarşı mübarizə aparır, bəsit hisslərdən uzaq olur, tolerant, multikultural dəyərlərin daşıyıcısı kimi böyüyürlər. Biz bu amili Vətən müharibəsində əyani şəkildə gördük - gənclik bir nəfər kimi öz doğma Vətəninin müdafiəsi üçün bir yumruq kimi birləşdi. Bu isə illərlə aparılan uğurlu dövlət gənclər siyasətinin təntənəsidir”.

***Sahib***

# Dublin yəhudisinin odisseyası

## Ceyms Coysun “Uliss” romanı haqqında

**əvvəli ötən saylarımızda**

“Uliss” romanı düşüncə seli texnikasıyla yazıldığından onun məzmununu danışmaq az qala mümkünsüzdür. Bu dediklərimiz də əsərin şirəsini çəkməyə uğursuz bir cəhd sayıla bilər. Coysun artıq çoxdan kulta çevrilmiş romanında süjet xətti, məzmun sərsəri yel kimi, axar su kimi ələgələn deyil, onu yalnız yenicə suvarılmış üslub tarlalarının şırımları arasına hopan suyun nəm izləritək eləcə seyrə dalmaq olar, daha ovuclayıb içmək yox. Elə təkcə romanın rusca variantının timsalında bu kitabı başqa dillərə çevirən tərcüməçilərin nə zülümlər çəkdiyini təsəvvür eləmək çətin deyil. Onu tərcümə olunduğu dildə yenidən düşünüb tapmaq, yenidən yazmaq lazımdır. Coysun bəxti onda gətirib ki, yazı dili ingiliscə olub, ömrünün romanını ingilis dilində yazıb, ardınca da onun əsəriylə çiyin-çiyinə yol başlayan iyirminci yüzillikdə ingilis dili bütün dünyada dominantlıq qazanıb, hegemon dilə çevrilib. Yoxsa “Uliss” kimi roman, uzağa getməyək, elə doğma irland dilində, ya qonşu şotland dilində, yaxud deyək ki, fin dilində, lap elə bütöv bir qitəyə kölgə salmış qosqocaman ispan dilində yazılsaydı, bunca diqqət, bunca şöhrət qazana bilərdimi?..

***

Onda belə bir sadəlövh, avam sual da meydana çıxır: istər poetik janrda yazılsın, istərsə də prozaik - bədii əsər onu ərsəyə gətirmiş ədəbi metoddan, öz proyektindən, yəni dilindən, üslubundan bu qədər asılı olmalıdırmı? Formaya, üsluba aludəlik ideyanı, mahiyyəti arxa plana atmırmı?

Yazının əvvəlində də ərz elədim ki, Coysun romanında forma məzmunu basıb, üslub, stilizasiya mahiyyətə çevrilib; yəni əslində, bu əsərdə yeni bir ideya, dərin məna da yoxdur (bir zaman Umberto Eko bunu sadə bir cümləylə dəqiq ifadə eləmişdi: “Coys deyir ki, dünya bombozdur”), başqa sözlə, burada fəlsəfə filologiyaya - qurban verilib deməzdim - güzəştə gedib. Kitabdakı orijinal məzmun qıtlığı, mahiyyət kasadlığı yüksək ədəbi sənətkarlıq hesabına misilsiz bədii fəndlərlə, krossvord effektli linqvistik oyunlarla, mədəniyyət tarixindən sitatlarla, müxtəsər desək, köhnəlik yeniliklə ört-basdır olunub. Xristian tanrısına inamını itirib dindən üz döndərəndə Coys qəlbindəki o yeri boş saxlamamışdı, o boşluğu mədəniyyətlə, sənətlə, ədəbiyyatla doldurmuşdu. İncəsənət onun dini-imanı, söz - tanrısıydı.

Ceyms Coysun üstündə durduğu fəlsəfi-ideoloji platformaya gəlincə o, əcdadları antik dövrə gedib çıxan azman, höcət, tərs bir skeptik idi - həyatın hansısa bir mənası, mahiyyəti olduğuna, mənəvi dəyərlərin varlığına amansız istehzayla, barışmaz şübhəylə baxan skeptik. Onun düşüncəsindən yola çıxsaq, həyata məna verən tanrı - sənətkar özüdür, yalnız onun sayəsində bu puç, əfsanə dünya hansısa mahiyyət, dəyər qazanır, daha doğrusu, gerçək mahiyyətinə qovuşub əsl üzünü göstərir, olmayan dəyərini alır. Skeptisizm bir düşüncə cərəyanı kimi heç bir mütləq, universal həqiqətin olmadığı iddiasını irəli sürən sofistikanın, ortaq əxlaq normalarını rədd eləyən sinizmin, ehkama çevrilmiş həyat şərtlərini, oturuşmuş qaydaları inkara qalxan nihilizmin, din, dövlət, ailə, cəmiyyət adlı tiranların, monstrların əsarətindən qurtulmağa çalışan anarxizmin doğmaca qardaşıdır. Coysun romanında da boğuq sinizm havası, qatı nihilizm ovqatı hökm sürür. Əsərdə iyrənc fizioloji təfərrüatlara varılması, eybəcər məişət reallıqlarının qabardılması dünyanın gerçək üzünü göstərməyə, həyatı iş başında tutub ifşa eləməyə, insan haqqında humanist, maarifçi mifləri qırıb-dağıtmağa yönəlib.

Bu kimi “cinayətlərinə” görə onun ömrünün kitabı bir çox ölkədə (özü də demokratik dövlətlərdə!), o cümlədən öz vətənində uzun illər bağlı qalmışdı. Handan-hana rəsmi yasaqlar götürülsə də, qeyri-rəsmi qadağalar bəlkə günü bu gün də aradan qaldırılmayıb. Bəziləri insanı heyvan, həşərat yerinə qoyan təkəbbürlü yazıçını, abırsız siniki hələ də bağışlaya bilmirlər, hərçənd onun ustalığı, sənətkarlığı ədəbiyyatdan başı çıxan kimdəsə çətin şübhə doğursun. Özcə bibisi qadağan olunduğu illərdə əl altından yayılan, hər saat tapılmayan defisit romanın bir nüsxəsini qəzəbindən od alan sobaya atmışdı. Şən, kefcil atası isə sevimli oğlunun kitabıyla tanış olanda heyrətə gəlib demişdi: “Mən onun belə yaramaz olduğunu bilmirdim!”

***

Uşaqlığında, yeniyetməliyində çox da ağır məhrumiyyətlər yaşamamış, ata şilləsi, ana ögeyliyi dadmamış, yaxşıca təhsil almış, bir qələm ustası kimi gəncliyinin erkən çağında parlayıb nüfuzlu ədəbi dərgilərə yol tapmış, Paris sənət mühitinə ayaq açmış, dövrünün bir çox ədəbiyyat generalından təqdir, tərif dolu sözlər eşitmiş Ceyms Coysun həyata, insanlara bunca inamsız, hətta ikrahla yanaşması hansı travmaların təhriki, hansı mənəvi zədələrin nəticəsiydi - bunları onun bioqrafiyasını araşdıran tədqiqatçılar bilməmiş olmazlar. Çox güman, o nifrət, şübhə, inamsızlıq dinə, ehkama qarşı barışmaz müxalifətin öldürücü müqavimət (əslində hücum) silahlarıydı, minillik cəhalətdən qurtulmağın, keçmişin əsarətindən sıyrılmağın radikal mübarizə üsullarıydı.

Hər nəydisə, “Uliss” boyunca Ceyms Coys həyatı astar üzünə çevirib bütün kirini-pasağını, yırtığını-yamağını göstərməkdən qəddar, zalım bir zövq alır. Romanın altıncı fəslində uşaqlıq yoldaşının dəfninə - mifik ölülər səltənəti Aid sakinlərinin ziyarətinə gedən Leopold Blum körpəykən dünyadan köçmüş oğlunu anır, arvadıyla birlikdə uşağın təməlini qoyduğu, Rudinin gələcək taleyinə çoxdan verilmiş fərmanı imzaladığı günü xatırlayır. Bu bir abzas Blumun da, Coysun da həyata münasibətinin devizi sayıla bilər: “Özündən sonra nəsə qoyub getmək. Əgər körpə Rudi salamat qalsaydı. Onun necə böyüdüyünü görmək. Evdə uşaq səsi eşitmək. İton zadəgan liseyinin məktəbli formasında Mollinin yanına düşüb getməsinə baxmaq. Mənim oğlum. Mən onun gözlərində. Qəribə yaşantı olardı. Məndən olan. Kor təsadüf. O səhər Molli pəncərədən Raymond-terrasa baxırdı, divarın dibində bir qancıq kürsəyə gəlirdi. Bəd əməl törətməyin. Çavuş da irişirdi. Ətəyi yırtıq solğun sarı xalatı yenə onun əynindəydi, hələ də o yırtığı gözəməklə işi yoxuydu. Dəmir kürədən çıxdı, gəl biz də. Ah, yaman istəyirəm, ölürəm...”

Körpənin dünyaya gəlişinin bütün mərhələlərini müqəddəs ilahi proses kimi təsvir eləyən Tolstoydan fərqli olaraq Coys bu prosesi instinktiv aldanış, həyata davamsız illüziya, varlığa parodiya kimi, üstəlik də şəhvani sayıqlama, eybəcər heyvani akt, çirkin fizioloji ifrazat kimi qələmə verir.

Bundan sonra abzasın sonuncu cümləsi gəlir. Elə bir cümlə ki, nə qədər sadə, primitiv görünsə də, “Uliss”in qırxıncı otağının açarı, Coysun da ana şüarı hesab olunmağa layiqdir: “...Həyat belə başlanır”.



***Fəxri Uğurlu***

# Qrenlandiya Vaşinqtonun “təsir”inə keçir?

## Ada Avropa Komandanlığının nəzarətindən çıxarıla bilər

**Donald Trampın Ağ Evə qayıdışı ilə gündəmə gələn “Qrenlandiya məsələsi” davam etməkdədir. Qeyd edək ki, dünyanın ən böyük adası sayılan, istismar olunmayan enerji resursları ilə zəngin olan, ən əsası isə Arktika ilə Atlantik okean arasında logistik marşrut potensialına malik Qrenlandiya hər zaman ABŞ-ın regional və beynəlxalq təhlükəsizlik strategiyası üçün xüsusi əhəmiyyət kəsb edib. İkinci Dünya müharibəsindən bu yana adada ABŞ-ın hərbi aviasiya və raket bazası fəaliyyət göstərir. Ada bu günə qədər ABŞ-ın şimal təhlükəsizliyinin təminatında mühüm rol oynayıb - Tramp administrasiyası isə Qrenlandiyaya münasibətdə daha “fərqli” bir siyasət yürüdür.**

## Trampın məqsədi

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Sultan Zahidov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Qrenlandiya ABŞ-ın Arktika strategiyasında önəmli prioritet hesab olunur. “Pentaqon Qrenlandiyadakı hərbi bazasını Avropa məsuliyyət zonasından çıxarıb şimal məsuliyyət zonasına daxil etməyi planlaşdırır. Əslinə baxanda ABŞ-ın bu addımı simvolik xarakter daşıyır. Qrenlandiya Vaşinqton üçün həm geostrateji, həm geosiyasi, həm də geoiqtisadi baxımından əhəmiyyətli region hesab olunur. Vaşinqton bu addımı ilə Qrenlandiyanın Avropanın deyil, Amerika qitəsinin bir parçası olduğunu mesajını verir. Tramp hələ birinci hakimiyyəti dövründə dəfələrlə çıxışlarında Qrenlandiyanın ABŞ-a ilhaq edilməsinin zəruriliyini vurğulamışdı. Qrenlandiya ABŞ-ın milli təhlükəsizliyinin möhkəmlənməsində önəmli bölgə kimi qiymətləndirilir. Adada ABŞ-ın hərbi mövcudluğunun gücləndirilməsi prioritet olaraq seçilib. Bu səbəbdən Vaşinqton Qrenlandiya məsələsində qəti mövqe nümayiş etdirir. Sözsüz ki, Trampın bu siyasəti Avropadakı müttəfiqləri ilə ciddi narazılıq yarada bilər. Eyni zamanda onu da qeyd edim ki, Qrenlandiya Arktikada Rusiya və Çinin təsir imkanlarını məhdudlaşdırmaq üçün ABŞ-a çox lazımdır”.



## ABŞ Komandanlığına...

Hazırkı ABŞ rəhbərliyi Qrenlandiyada siyasi, iqtisadi və hərbi təsir imkanlarını artırmaq üçün müəyyən tədbirlər görmək niyyətinə düşüb. Tramp bir müddət əvvəl NBC kanalına müsahibəsində Qrenlandiya ilə bağlı məsələyə aydınlıq gətirərkən adanı ABŞ-a ilhaq etmək üçün hərbi gücdən istifadə edə biləcəyini istisna etməmişdi. Ağ Evin rəhbəri bildirmişdi ki, Qrenlandiya ABŞ-a milli təhlükəsizlik məqsədləri üçün lazımdır.

İndi isə ABŞ Müdafiə Nazirliyi - Pentaqon Qrenlandiyanı Silahlı Qüvvələrin Şimal Komandanlığının məsuliyyət zonasına daxil etməyi planlaşdırır. “Politico”nun məlumatına görə, Qrenlandiya bu həftə Avropa Komandanlığının nəzarətindən çıxarıla bilər. Nəşr qeyd edir ki, bu qərar Danimarkanın və NATO-dakı ABŞ müttəfiqlərinin narazılığına səbəb ola bilər.



## Hüquqi cəhətdən...

“Bu, hüquqi cəhətdən tam mümkündür. ABŞ-ın müdafiə qurumu olan Pentaqonda vahid planlaşdırma komandanlığı var. Bu komandanlıq altı coğrafi məsuliyyət zonasına baxır. İstər şimal, istər cənub, istərsə də qərb və şərq istiqamətində görülən bütün tədbirlərə bu komandanlıq öz münasibətini bildirir. Qrenlandiyanın Pentaqonun şimal məsuliyyət zonasına daxil edilməsi beynəlxalq hüququn normalarına zidd deyil,” - deyə S.Zahidov vurğulayıb.

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






## Hansı qidalara üstünlük verək?

# Yayın “yeməyi”...

**Sağlam olmağın vacib şərtlərindən biri düzgün qidalanmadır. Rahat və gümrah həyat sürmək istəyiriksə, ilk növbədə, sağlamlığın və gözəlliyin harmoniyası olan düzgün qidalanma qaydalarına riayət etməliyik. Gün ərzində qəbul etdiyimiz qidalar orqanizmin ehtiyac duyduğu vitamin və mineralları təmin etməlidir. Təsadüfi deyil ki, xəstəliklərin əksəriyyəti düzgün qidalanmama nəticəsində orqanizmdə maddələr mübadiləsinin pozulması ilə əlaqədar baş verir.**
**Artıq yay mövsümü başlayıb. Havaların isti keçdiyi günlərdə qida rasionunda nələrə diqqət etməli olduğumuz aktuallıq kəsb edir. Mütəxəssislər də yay mövsümündə xəstəliklərin əsas səbəbinin qidalanma ilə əlaqədar olduğunu bildirirlər. Məlumdur ki, isti havalarda qidalardan zəhərlənmə, həmçinin müxtəlif infeksion xəstəliklərin yaranması çoxalır.**

### Yuxu rejimi vacibdir...

Mövzu barədə “Yeni Azərbaycan”a danışan dietoloq Şəfa Yadigarova bildirib ki, yay fəsli maddələr mübadiləsinin aktivləşdiyi bir fəsildir: “Qışdan fərqli olaraq, bu fəsldə qan dövranı yaxşılaşır. İnsanlar yayda daha çox istirahət edirlər, fiziki aktivliyi ön plana çəkirlər. Havalar isti keçdiyinə görə, istər-istəməz çox su içirik. Daha çox detoks sularından istifadə edirik. Yediyimiz qidalar daha rahat həzm olunur. Buna baxmayaraq qida rejiminə diqqət etmək lazımdır.

Yay fəsli daxili orqanların, hormonların sürət mexanizminə çox yaxşı təsir göstərir. Odur ki, hormonların sürət mexanizminin daha da aktivləşməsi üçün yuxu rejiminə düzgün əməl etməli, səhər tezdən oyanmalı və yüngül fiziki idman hərəkətləri etməliyik. Açıq havada yoqa ilə məşğul olmaq, yürüş etmək də olar. Bu, xüsusən səhər və axşam saatlarında daha faydalıdır”.

### Ağartı məhsulları...

Dietoloqun sözlərinə görə, isti havalarda su içmək vacibdir: “Meyvə-tərəvəzlərin tərkibindəki xeyirli maddələr səhər saatlarında mənimsənilir. Ona görə də səhərlər meyvə şirələrinə də üstünlük versək, gün ərzində daha pozitiv, daha gümrah olarıq. Yay fəslinin əsas vacib şərti odur ki, axşam yeməyi yüngül olsun. Çünki, axşam saatlarında həzm sistemi ağır işləyir. Ona görə də, çiy və ya bişmiş tərəvəzlərə, ev şəraitində hazırlanmış detoks çaylarına və ağartı məhsuluna üstünlük vermək lazımdır”.



### Bu qidalardan uzaq durun...

Ş.Yadigarova qeyd edib ki, yay fəslində orqanizmin vitamin balansını tənzimləmək üçün təbii meyvə-tərəvəzlər yemək vacibdir: “İsti aylarda əlavə vitamin qəbulu məsləhət deyil. Çünki orqanizm bu fəsildə zəhərli toksinlər ifraz etməyə başlayır. Yəni istənilən dərman preparatlarının tərkibindəki maddə orqanizm tərəfindən mənimsənilmir. Yay fəslində əti və yağlı qidaları bir kənara qoymaq lazımdır. Dana əti belə orqanizmə bu aylarda mənfi təsir göstərir. Eləcə də quzu ətindən hazırlanmış qidaların tərkibindəki ağır xolestrin orqanizm tərəfindən yaxşı mənimsənilmir”.

### Yayda kərə yağı həzm olunmur

Dietoloqun sözlərinə görə, zülal insan orqanizmi üçün vacibdir: “Zülallar həm heyvan, həm də bitki mənşəli olur. Qışda ət məhsullarına üstünlük verilir. Yayda isə bitki mənşəli zülal qəbul edilməlidir. Çalışıb paxlalı bitkilər yemək lazımdır. Tərəvəz, toyuq şorbaları içmək olar. Yayda kərə yağı həzm olunmur, orqanizmdən sovrulmur. Buna görə də yeməkləri bitki yağı ilə hazırlamaq məsləhətdir. Yayda eyni zamanda yumurtadan da az istifadə etmək lazımdır”.

*Yeganə BAYRAMOVA*



# Günahsız qurbanlar...

## Ömrü yarıda kəsilənlərin günü

Onları sevindirmək o qədər çətin deyil - istəkləri, arzuları böyük deyil. Dünyanın harasında olursa-olsunlar, arzuları eynidir - adi bir təbəssüm, mehriban baxış, xoş münasibətdən xoşbəxt ola bilirlər. Bəzən isə məkrli oyunların, bitib-tükənməyən təmənnaların, ailədaxili münaqişənin qurbanına çevrildikləri də acı bir həqiqətdir. Təəssüf ki, bəziləri sevgiyə, qayğıya daha çox ehtiyac duyduqları bir zamanda fəlakətlərlə üzləşir, sevincləri, gülüşləri əllərindən alınır, aqressiyaların qurbanı olurlar.



Statistik göstəricilərə əsasən, dünyada hər il minlərlə, milyonlarla uşaq aqressiyanın qurbanına çevrilir. Müxtəlif ölkələrdə hər il minlərlə uşaq minaya düşərək, müharibələrin günahsız qurbanı olaraq həyatını və ya sağlamlığını itirir. Dünyada 70-dən çox ölkədə basdırılan 60 milyondan çox minanın qurbanı bəzən uşaqlar da olur - aqressiyanın qurbanı...

İyunun 4-nü dünya ölkələri Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi qeyd edir. Həmin gün dünyanın müharibə adlı fəlakətinin, dəhşətli bəlasının günahsız qurbanları anılır. Birləşmiş Millətlər Təşkilatının (BMT)

### Dünyanın 70-dən çox ölkəsində...

Baş Assambleyası 1982-ci il avqustun 19-da Fələstin məsələsi üzrə xüsusi sessiyasında aqressiya və təcavüzün qurbanı olan günahsız uşaqların xatirəsini iyunun 4-ü Beynəlxalq Aqressiya Qurbanı olan Uşaqlar Günü kimi anmağı qərara alıb.

Hərbi münaqişələr zonasında yaşayan uşaqlar - gələcəyi olmayan uşaqlardır. Müharibələrdə yalnız əsgərlərin deyil, uşaqların da həlak olduğunu unutmamaq üçün BMT bu günü təsis edib.

### Gülüşləri əllərindən alınan körpələr...

Müharibələr xalqımızın da yaddaşında ağrı-acılarla dolu silinməz izlər buraxıb. Azərbaycana qarşı 20-ci əsrin sonlarından torpaq iddiası adı altında təxribatlara başlayan ermənilər neçə-neçə günahsız uşağın həyatına son qoydu. Birinci Qarabağ müharibəsi illərində, ümumilikdə, 200-ə yaxın azərbaycanlı uşaq qətlə yetirildi. Təkcə Xocalı soyqırımı zamanı ermənilər tərəfindən 63 uşaq öldürüldü. 25 uşaq hər iki valideynini, 130-u isə bir valideynini itirdi.

Birinci Qarabağ müharibəsi zamanı əsir və itkin düşmüş, girov götürülmüş Azərbaycan vətəndaşları arasında uşaqlar da az olmadı. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Rəsmi qeydiyyata alınmış itkinlərin 71 nəfəri uşaqlardır.

### Onları xoşbəxt gələcək gözləyirdi...

Ermənistan silahlı qüvvələri 2011-ci il martın 8-də Ağdam rayonunun Orta Qərvənd kəndində, öz evlərinin həyətində dostları ilə oynayan 9 yaşlı Fariz Bədəlovu snayperlə hədəfə alaraq qətlə yetirdilər. 2017-ci il iyulun 4-də Füzuli rayonu Alxanlı qəsəbəsində 14 aylıq Zəhra Quliyeva nənəsi Sahibə Quliyeva ilə birgə Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəşlər nəticəsində şəhid oldular. Atəşkəs dövründə 34 azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 14-ü şəhid oldu, 20-si yaralandı.

Ermənilərin uşaqlara qarşı aqressiyası Vətən müharibəsi günlərində də davam etdi - onlar döyüş bölgələrindən uzaqlarda yerləşən mülki əhalinin yaşayış yerlərini iriçaplı silahlardan atəşə tutdular. Azərbaycanın Tovuz, Gəncə, Bərdə, Tərtər, Mingəçevir şəhərlərinin Ermənistan ərazisindən raket atəşinə tutulması nəticəsində həlak olanların arasında xeyli azyaşlı vardı. Neçə-neçə uşaq isə ya bir, ya da hər iki valideynini, digər yaxın qohumlarını itirdi, atəş nəticəsində uçmuş evlərinin dağıntıları altında qalaraq ağır xəsarət aldılar.

Hər bir xalqın, dövlətin ən böyük və qiymətli sərvəti uşaqlardır. Onların cəmiyyətə təhlükəsiz və sağlam böyüməsi isə olduqca məsuliyyətli bir işdir. Bu baxımdan azyaşlıların müxtəlif aqressiyaların qurbanına çevrilməməsi inkişaf etmiş ölkələrin uşaqlarla bağlı siyasətinin əsasını təşkil edir.

*Yeganə BAYRAMOVA*

## İdman

### “Fənərbağça”nın idman direktoru postunu tərk edib

Türkiyənin “Fənərbağça” klubunda ayrılıq yaşanıb. AZƏRTAC İstanbul təmsilçisinin rəsmi saytına istinadən xəbər verir ki, idman direktoru Mario Branko postunu tərk edib. M. Branko 2022-ci ildən “Fənərbağça”da işləyirdi.

### “Araz-Naxçıvan” klubu 2 futbolçu ilə yeni müqavilə imzalayıb




Transfer çalışmalarını davam etdirən “Araz-Naxçıvan” komandası müqaviləsi başa çatmış daha 2 futbolçu ilə yenidən anlaşıb.

Klubdan AZƏRTAC-a bildirilib ki, Slavik Alxasov və Qara Qarayev 2025-2026-cı illər mövsümünü də Naxçıvan təmsilçisinin heyətində keçirəcək. Hər iki futbolçu ilə anlaşma 1 illikdir.

Qeyd edək ki, buna qədər baş məşqçi Elmar Baxşıyevlə yanaşı, İssof Paro, Ömər Buludov, Kristian Avram, Tərlan Əhmədli, Ürfan Abbasov, Bəxtiyar Həsənalızadə və Ülvü İsgəndərovla də yeni müqavilə imzalanıb.

### Səlçuk İnan yeni klubda



Yeni mövsümdə Türkiyə Superliqasında mübarizə aparacaq “Kocaelispor”un yeni baş məşqçisi məlum olub.

AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, bu vəzifəyə tanınmış mütəxəssis Səlçuk İnan gətirilib. Onunla 1+1 illik müqavilə imzalanıb.

Səlçuk İnan son olaraq “Qaziantep” komandasında işləyib.

### İngiltərə Premyer Liqasında yeni mövsümün topları



Növbəti mövsüm İngiltərə Premyer Liqasının oyunlarında istifadə ediləcək yeni toplar ictimaiyyətə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə çempionatın rəsmi sayı məlumat yayıb.

Yeni toplar Almaniyanın idman brendi “Puma”ya məxsusdur. Əvvəllər İngiltərə çempionatının matçları “Nike” şirkətinə aid toplarla oynanılıb.

Qeyd edək ki, toplardan ilk dəfə bu ilin iyulunda Premyer Liqa klublarının ABŞ turunda istifadə ediləcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4966**
**Sifariş: 1176**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova